DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 08 (337) / AVQUST 2019-CU İL

# PREZİDENT İLHAM ƏLİYEV İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymini qəbul edib.

Dövlətimizin başçısı Yusif bin Əhməd Əl-Osayminin İslam Əməkdaşlıq Təşkilatının Baş katibi kimi fəaliyyətini yüksək qiymətləndirib və Azərbaycanla əməkdaşlığa verdiyi önəmə görə ona təşəkkürünü bildirib.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının çox mühüm üzvü olduğunu vurğulayan qonaq ölkəmizin dünyada sülhün və təhlükəsizliyin, o cümlədən müsəlman aləmində İslam həmrəyliyinin möhkəmləndirilməsi işinə verdiyi töhfəsinin əhəmiyyətini qeyd edib.

Görüşdə ölkəmizin dinlər və mədəniyyətlərarası dialoqun genişləndirilməsində mühüm rol oynadığı qeyd edilib, Azərbaycanın dünyada bütün dinlərin və məzhəblərin sülh şəraitində birgə yaşadığı nümunəvi ölkə olduğu bildirilib, Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarının önəmi vurğulanıb.

Söhbət zamanı Azərbaycanla İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Bibiheybət ziyarətgahında Azərbaycanın Birinci vitse-prezidentinə Qurani-Kərim hədiyyə olunub



Səh. 2

## “ŞEYXÜLİSLAM ALLAHŞÜKÜR PAŞAZADƏ 70 - MƏNƏVİYYATA HƏSR OLUNMUŞ ÖMÜR”



Səh. 3

## DÖVLƏT KOMİTƏSİNDƏ MÜŞAVİRƏ KEÇİRİLİB



Səh. 5

## “AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK”




Səh. 10-11

# QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK



Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, ən xoş arzu və diləklərimi yetirirəm.

Qurban bayramı Allahın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi özündə mənəvi birliyi, həmrəyliyi, xeyirxahlığı və dözümlülüyü ehtiva edərək, insanın ən çətin məqamlarda düzgün mövqe seçmək və ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini əks etdirir.

Tarixən İslama və onun mütərəqqi ənənələrinə bağlı olan xalqımız əsrlər boyu bu dəyərləri yaşatmış və ölkəmiz İslam sivilizasiyasının mədəni mərkəzlərindən birinə çevrilmişdir. Azərbaycanda bütün dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il böyük təntənə və yüksək əhval-ruhiyyə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, xeyriyyəçilik işləri görülür, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvaram ki, bütün xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Uca Yaradanın mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Qurban bayramı münasibətilə bir daha hər birinizə səmimi təbriklərimi çatdırır, qurbanlarınızın Allah tərəfindən qəbul olunmasını arzu edirəm. Qoy, bu mübarək bayram ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Qurban bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 9 avqust 2019-cu il.*

# A.H.Paşazadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin formalaşması, milli həmrəyliyin və mənəvi-əxlaqi dəyərlərin bərqərar olması sahəsində xüsusi xidmətlərinə görə Şeyxülislam Allahşükür Paşazadə "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 26 avqust 2019-cu il.*

# Birinci vitse-prezident Mehriban Əliyeva Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Qurban bayramı münasibətilə sizləri ürəkdən təbrik edirəm. İnsansevərlik, xeyirxahlıq, paylaşmaq, mərhəmət hisslərinin rəmzi olan bu müqəddəs gündə xalqımıza cansağlığı, xoş güzəran, əmin-amanlıq, tükənməyən sevgi arzu edirəm. Allah dualarınızı qəbul etsin!"

# Bibiheybət ziyarətgahında Azərbaycanın Birinci vitse-prezidentinə Qurani-Kərim hədiyyə olunub



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva avqustun 26-da Bibiheybət ziyarətgah kompleksini ziyarət ediblər.

VII əsrin yadigarı, müqəddəs qəbirlərin sayına görə İslam dünyasının üçüncü ziyarətgahı sayılan Bibiheybətdə Peyğəmbər nəslinin dörd nümayəndəsi uyuyur. Milli-mənəvi dəyərlərimizə dərindən bağlı olan Ulu Öndər Heydər Əliyev 1994-cü ilin martında Qurban bayramı günündə bu müqəddəs ocağı ziyarət edib, 1997-ci il iyulun 23-də, Məhəmməd Peyğəmbərin mövludu günündə burada yeni məscid kompleksinin bünövrəsini qoyub. Bir il sonra, yenə də Peyğəmbərin mövludu günündə məscidin əsas korpusunun açılış mərasimində iştirak edib.

Prezident İlham Əliyevin maddi-mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar sırasında Bibiheybət məscid kompleksinin genişləndirilməsi də əksini tapıb. Dövlətimizin başçısı 2005-ci və 2007-ci illərdə buranı ziyarət edib. 2008-ci ildə Bibiheybət ziyarətgah kompleksinin əsaslı yenidənqurmadan sonra açılışında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər.

Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondu milli-mənəvi dəyərlərimizin qorunması, onların təbliği, dünyaya çatdırılması istiqamətində çox mühüm işlər görür. Qədim məscidlərimizin bərpası, yeni müasir məscid komplekslərinin inşası bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Birinci vitse-prezident Mehriban Əliyevaya məsciddə müqəddəs Qurani-Kərim hədiyyə olunub.

# "ŞEYXÜLİSLAM ALLAHŞÜKÜR PAŞAZADƏ 70 - MƏNƏVİYYATA HƏSR OLUNMUŞ ÖMÜR"





Avqustun 22-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin 70 illik yubileyi münasibətilə "Şeyxülislam Allahşükür Paşazadə 70 - Mənəviyyata həsr olunmuş ömür" adlı konfrans keçirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edən Komitənin sədri Mübariz Qurbanlı Şeyxülislam Allahşükür Paşazadənin həyat və fəaliyyətindən danışıb.

Sonra "REAL" televiziyasının hazırladığı sənədli film nümayiş olunub.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Allahşükür Paşazadəni nüfuzlu ictimai xadim kimi səciyyələndirib. Əli Həsənov deyib ki, A.Paşazadə Azərbaycanın mənəvi həyatında özünəməxsus nümunələr yaradıb. Azərbaycan müstəqillik əldə etməzdən əvvəl şeyxülislamlıq müəyyən çərçivəyə alınmışdı. Dövlət müstəqilliyinin bərpasından sonra isə şeyxülislamlıq tamamilə yeni müstəviyə qədəm qoydu. Bu, ilk növbədə, Allahşükür Paşazadənin adı ilə bağlıdır. Azərbaycan müstəqilliyinin ilk illərindən böyük dövlətlərin marağında idi. A.Paşazadə həmin illərdə məsuliyyəti öz üzərinə götürdü və mənəvi birliyin möhkəmləndirilməsində əhəmiyyətli rol oynadı. O, Azərbaycanda milli-mənəvi birlik modelini yaradıb. Onun bu istiqamətdəki xidmətləri Ulu Öndərimiz Heydər Əliyev tərəfindən xüsusi qiymətləndirilib.

QMİ sədrinin ölkəmizdəki dini konfessiyalar arasında münasibətlərin yüksək səviyyədə qorunub saxlanılmasında da birbaşa rol oynadığını bildirən Prezidentin köməkçisi qeyd edib ki, sadə insanlar bu nümunəni görüb digər dinlərin nümayəndələrinə hörmət və ehtiramla yanaşırlar. İslam dini müdrik dindir. Onu xurafatdan uzaqlaşdırılıb düzgün təqdim edilməsi də Şeyxülislam Allahşükür Paşazadənin xidmətidir. O, çətin zamanda xalqın qarşısına çıxaraq prinsipial mövqe ortaya qoyub. Bu gün bütün dünyada böyük hörmətə malik olan A.Paşazadə Azərbaycandakı tolerant mühiti beynəlxalq aləmdə tanıdır. Şeyxülislam, eyni zamanda sülh missiyası həyata keçirən diplomatdır və İslam dövlətləri arasında münasibətlərin möhkəmləndirilməsində də böyük rol oynayıb, müsəlman ölkələrinə təcavüzlərə qarşı daim etirazını bildirib. A.Paşazadə Şeyxülislam olaraq öz missiyasını layiqincə yerinə yetirib və yetirir. 1993-cü ildə o, bütün insanları Ulu Öndərin ətrafında birləşməyə çağırdı. Bu da onun vətəndaşlıq missiyasının göstəricisidir. Azərbaycan dövləti onun fəaliyyətini layiqincə qiymətləndirib. Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev çıxışlarında A.Paşazadənin xidmətlərini dəfələrlə qeyd ediblər.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov bugünkü tədbirin çox əlamətdar olduğunu bildirərək qeyd edib ki, Allahşükür Paşazadənin 40 illik şeyxülislamlıq fəaliyyəti dövründə xalqımız, dövlətimiz qarşısında böyük xidmətləri var. O, əsl ağsaqqaldır. A.Paşazadə sübut edib ki, ağsaqqallıq yaşla bağlı deyil, o, hələ 30 yaşında olarkən Şeyx seçilmişdi. Həmin vaxt Naxçıvanda məscidlər tikildi. O, hər zaman Ulu Öndərin yanında idi. Ulu Öndərimizin müstəqil Azərbaycana rəhbərliyə başlamasından sonra ölkəmizdə hər sahədə tərəqqi başladı. Şeyxülislam A.Paşazadə bu işə daim öz dəstəyini göstərib.

Azərbaycan Yazıçılar Birliyinin sədri (AYB), Xalq yazıçısı Anar A.Paşazadənin Azərbaycan tarixində ən gənc Şeyxülislam olduğunu vurğulayıb. Qeyd edib ki, o, hələ gənc yaşlarında milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına töhfələr verib. Bu gün isə Azərbaycanın tolerantlıq modelinin dünyaya tanıdılmasında əvəzsiz rol oynayır.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov A.Paşazadənin təkcə ictimai xadim deyil, eyni zamanda siyasi xadim və diplomat olduğunu bildirərək deyib: "Xalqımızın çətin günlərində Azərbaycanda iki nəfər xalqın qarşısına çıxdı, Qorbaçovu ittiham etdi - Ulu Öndər Heydər Əliyev və Şeyxülislam Allahşükür Paşazadə. Ölkəmizdə dini münasibətləri çox düzgün tənzimləyən Şeyxülislam A.Paşazadə dünyada böyük hörmətə malikdir. Bütün cərəyanların nümayəndələri Vəhdət namazlarında iştirak edirlər. Bu isə ölkəmizdəki müxtəlif dini cərəyanlara mənsub insanların vahid mərkəzdə birləşdiyini göstərir. Bu gün Azərbaycan beynəlxalq dini tədbirlərin keçirildiyi mərkəzə çevrilib".

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxışında bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi multikulturalizm siyasətinin əsasını dinlərarası münasibətlərin qarşılıqlı hörmət əsasında qurulması təşkil edir. Bu siyasətin reallaşmasına QMİ sədri də öz töhfəsini verir. A.Paşazadənin həyat və fəaliyyətindən danışan E.Nəcəfov qeyd edib ki, o, nəinki ölkə daxilində və Qafqazda, eyni zamanda bütün dünyada böyük nüfuz sahibidir. Ulu Öndər onun xidmətlərindən danışarkən demişdi: "Əgər Allahşükür Paşazadə bütün Qafqazın şeyxidirsə, biz bununla fəxr etməliyik".

Milli Məclis sədrinin birinci müavini, parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov bildirib ki, Azərbaycanda vətəndaş həmrəyliyinin möhkəmləndirilməsində Allahşükür Paşazadənin şəxsiyyəti çox böyük rol oynayıb. O, bütün dinlərə mənsub insanlara eyni məhəbbətlə yanaşır. Bu səmimiyyəti onu bütün dünyada sevdirir: "Bu gün Azərbaycan böyük dini tədbirlərə ev sahibliyi edir. Bunu qısqananlar da var. Lakin bu, bizim həyat tərzimizdir".

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi Yusif bin Əhməd əl-Useymin Şeyxülislam Allahşükür Paşazadəni təkcə Azərbaycan üçün deyil, bütün İslam dünyası üçün əvəzolunmaz, dahi şəxsiyyət kimi dəyərləndirib. Qeyd edib ki, A.Paşazadə dahiliyin səsidir, İslam dünyasının ona böyük ehtiyacı var.

Şeyxülislam Allahşükür Paşazadənin xalqımızın etibarını, inamını qazanmış dini lider olduğunu deyən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova vurğulayıb ki, o, bütün Qafqazda dini həmrəyliyin bərqərar olunmasında əvəzsiz rola malikdir. Hər il keçirilən İftar mərasimlərində bütün dinlərə mənsub insanların birgə iştirakı ölkəmizdəki tolerant mühitdən xəbər verir. Ölkəmizdə sülhün, əmin-amanlığın qorunub saxlanılmasında QMİ sədrinin böyük xidmətləri var.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Parlament Məclisinin Baş katibi Asəf Hacıyev Şeyxülislam Allahşükür Paşazadə ilə bağlı xatirələrini bölüşüb.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Azərbaycan Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev və Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Hacı Salman Musayev çıxışlarında ölkəmizdə dinə münasibətdən, multikultural və tolerant mühitdən məmnunluqlarını ifadə ediblər. Bildirilib ki, dini tolerantlığın qorunub saxlanılması daim dövlətin diqqət mərkəzindədir və tolerantlıq Azərbaycan xalqının həyat tərzidir. Bütün dinlərə mənsub insanlar bu ölkədə rahat, sərbəst şəkildə yaşayırlar. Ulu Öndər Heydər Əliyev deyirdi ki, tolerantlıq xalqın yüksək mədəniyyətinin təzahürüdür. Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasət hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir və zənginləşdirilir. Buna görə də Azərbaycandakı bütün xalqlar özlərini sərbəst, rahat hiss edir, dini inanclarına görə mənfi münasibətlərə məruz qalmırlar.

Sonra Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək bütün xoş sözlərə görə təşəkkürünü bildirib. O, Azərbaycanda İslam dininin Sovet dövründəki çətin vəziyyətindən danışaraq bildirib ki, xalqımız gizli də olsa, öz imanını yaşadıb. Ulu Öndər Heydər Əliyev hələ o dövrdə İslamın inkişafı üçün işlər görür, bu sahədə mütəxəssislərin yetişdirilməsi istiqamətində fəaliyyət göstərirdi.

"Ulu Öndər çox imanlı şəxsiyyət idi. Bu gün Azərbaycanın tolerant ölkə kimi tanınmasının əsasını Ümummilli Lider qoyub. Hazırda isə bu işi Prezident İlham Əliyev uğurla davam etdirir. Bu gün İslamın təbliği və tanıdılması üçün hər cür şərait var. Dövlətimiz bu işə xüsusi dəstək göstərir", - deyə Allahşükür Paşazadə qeyd edib.

# AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ ÇEÇENİSTANDA SƏFƏRDƏ OLUB



Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərovun, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının da daxil olduğu Azərbaycan nümayəndə heyəti avqustun 23-də Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə Rusiya Federasiyası, Çeçenistan Respublikasının paytaxtı Qroznı şəhərinə səfərə gedib. Səfərdə İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Useymin də iştirak edib.

Nümayəndə heyəti Çeçenistan Respublikasının birinci Prezidenti, Rusiya Qəhrəmanı Əhməd Kadırovun anadan olmasının 68-ci ildönümü münasibətilə keçirilən təntənəli tədbirdə və yeni məscidin açılış mərasimində iştirak edib. İştirakçılar arasında müsəlman ölkələrindən gələn qonaqlar, RF Prezidentinin Şimali Qafqaz Federal Dairəsində səlahiyyətli nümayəndəsi Aleksandr Matovnikov, Şimali Qafqaz məsələləri üzrə nazir Sergey Çebotaryov da olubdur.

Rusiya Federasiyası, Çeçenistan Respublikasının başçısı Ramzan Kadırov Şali şəhərində istifadəyə verilən dini ocağın Məhəmməd Peyğəmbərin adını daşıyacağını bildirib.

Rusiya Prezidenti Vladimir Putin mərasimə toplaşanlara təbrik teleqramı göndərib.

Avropanın ən iri məscidində eyni vaxtda 30 min insan ibadət edə biləcək. Məscidin ətrafındakı 5,3 hektar ərazi də nəzərə alınarsa, burada eyni vaxtda 100 min mömin ibadət edə bilər. Tikilinin içərisi və xarici ağ yunan mərməri ilə bəzədilib.



# Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının və Elmi-Dini Şuranın fətvası




**Bismillahir-rəhmanir-rəhim!**

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası və Elmi-Dini Şura bəyan edir ki, hicri 1441-ci ilin başlanğıcı – Məhərrəm ayının 1-i miladi təqvimlə 2019-cu il sentyabrın 1-nə, Aşura günü isə sentyabrın 10-na təsadüf edəcək.

Tarix boyu bütün səmavi dinlər tərəfindən sülh və əmin-amanlıq ayı kimi qəbul edilən Məhərrəmin onuncu günü olan Aşura əfsus ki, hicri 61-ci ildən şəhadət və hüzn günü kimi yad edilir. Aşura hadisəsində Müaviyə oğlu Yezidin göstərişi ilə Həzrət Peyğəmbərin (s) nəvəsi və səhabəsi İmam Hüseyn (ə), o Həzrətin (s) digər səhabələri, Əhli-Beyt və tərəfdarları Kərbəla çölündə şəhid edilmiş, ailələri əsir alınmışdır. Bununla yanaşı, İmamın (ə) haqq-ədalət naminə şəhadəti bəşəriyyət və insanlıq üçün mənəvi kamillik, dirçəliş nümunəsidir. Odur ki, İmam Hüseyn (ə) əzadarlığı ölkəmizdə də bədbinlik və ümidsizliyə deyil, Vətən və iman sevgisinə, işğal olunmuş Qarabağ torpaqlarının azad edilməsi uğrunda mübarizəyə çağırış ruhunda olmalıdır.

Təziyə mərasimlərində şəhidlərimizi yad etmək, əzəli torpaqlarımızın işğaldan azad olunmasına dua etmək müqəddəs borcumuzdur. Dindarlarımız müsəlman tarixində kədərli, lakin şərəf və qürur nümunəsi kimi yer alan Kərbəla faciəsinin, eləcə də İmam Hüseynin (ə) həyat və şəhadətinin yad edilməsi ənənəvi olaraq bu gün də davam etdirirlər.

Məhərrəmlik mərasimləri İmam Hüseynin (ə) şəninə uyğun və amallarına yaraşan tərzdə qeyd edilməlidir. Mövcud qanunvericiliyə əsasən, təziyə məclisləri məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə təşkil olunmalı, ictimai asayişə mane olmamalıdır. Dini mərasim və ayinlər yalnız QMİ-nin rəsmi şəkildə təyin etdiyi din xadimləri tərəfindən idarə edilməlidir. Din xadimləri İmam Hüseyn (ə) mübarizəsinin və Kərbəla faciəsinin mahiyyətini düzgün çatdırmalı, şəhidlik fəlsəfəsinin açıqlanmasına, vətən təəssübü və milli mənafelərimizin təbliğinə ciddi çalışmalıdırlar. İbadət məkanlarından kənar ərazilərdə kütləvi yürüşlərə çıxmaq, özünə və ətrafdakılara xəsarət yetirə biləcək alətləri, başqa ölkələrin bayraq və digər dövlət rəmzlərini mərasimlərə gətirmək yolverilməzdir. Əzadarlıq mərasimlərində dinimizin təyin etdiyi əxlaqi meyarlara riayət olunmalıdır. Qurşağadək soyunub zəncir vurmaqla bədənə xəsarət yetirmək və baş yarmaqla qan çıxarmaq İslam qanunlarına ziddir, İmamın (ə) və Kərbəla şəhidlərinin xatirəsinə hörmətsizlikdir. Allah rizası üçün İmam Hüseynə (ə) məhəbbətini izhar etmək istəyənlər Fətvada əks olunan tövsiyələrə əməl etməlidirlər. Din xadimləri isə Qazılar Şurasının və Elmi-Dini Şuranın Fətvasını məscidlərdə oxumalı və qeyd olunan tövsiyələrə bütün dini mərasimlərdə əməl olunmalıdır.

QMİ-nin təşəbbüsü ilə gerçəkləşən və təziyə günlərində ehtiyacı olan xəstələr üçün təşkil edilən İmam Hüseyn (ə) xatirinə könüllü qanvermə aksiyaları cəmiyyətin təqdirini qazanmışdır. Respublika Səhiyyə Nazirliyi QMİ-nin başlatdığı bu kampaniyaya dəstək əlaməti olaraq məscidlərlə yanaşı, ibadət məkanlarına yaxın ərazilərdə yerləşən tibb məntəqələrində (xəstəxana və poliklinikalarda) də qanvermə aksiyalarının həyata keçirilməsini təmin edəcəkdir. Kərbəla və Azərbaycan şəhidlərinin xatirəsinə qan verilməsinin təşkili ən münasib əzadarlıq nümunəsidir və din xadimlərimiz bu savab əməli lazımınca təbliğ etməlidirlər. Ümid edirik ki, möminlər Allaha xoş gedən bu gözəl ənənəni yaşadacaqlar və Allah-Təala minlərlə xəstə insana İmam Hüseynə (ə) xatir şəfa bəxş edəcəkdir, inşallah!

Bu gün vətənimiz Azərbaycanda dövlət və xalq birliyi sayəsində ictimai asayiş və əmin-amanlıq mövcuddur. Ölkə müsəlmanları olaraq bu böyük nemətə görə Allah-Təalaya şükürlər edir, din xadimlərimizi və dindarlarımızı respublikadakı mövcud sabitliyin qorunmasına, dindən sui-istifadə edərək məhərrəmlik mərasimlərində qarşıdurma yaratmağa çalışan qüvvələrə qarşı ayıq-sayıq olmağa çağırırıq. Din xadimləri və dindarlar isə hər hansı təxribatın qarşısını almaq üçün asayiş keşikçilərinə yardımçı olmalıdırlar.

QMİ məzhəbindən asılı olmayaraq ölkə müsəlmanlarına İmam Hüseyn (ə) mərasimlərində birgə iştirak etməyi, İmam (ə) və Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ və Xocalı şəhidlərinin də ruhlarına dualar etməyi tövsiyə edir.

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şura Azərbaycan dövlətçiliyinin əsasını qoymuş Ümummilli Lider Heydər Əliyevə Allah-Təaladan rəhmət diləyir, dövlətimizin siyasi-iqtisadi və mənəvi inkişafı üçün misilsiz səylər göstərən, tolerantlığın və multikultural dəyərlərin təminatçısı və himayədarı olan, dünya miqyasında İslam həmrəyliyi ideyalarını müdafiə edən dövlət başçımız İlham Əliyev cənablarının fədakar fəaliyyətinə Uca Allahdan inayət arzulayır, xalqımızın əmin-amanlığı və rifahı üçün dualar edir. Allah köməyimiz olsun!

**Vəssəlamu-əleykum və rəhmətullahi və bərəkətuhu!**

*Bakı şəhəri,*
*27 avqust 2019-cu il*

# DÖVLƏT KOMİTƏSİNDƏ MÜŞAVİRƏ OLUB

Avqustun 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun iştirakı ilə ölkədəki mövcud dini duruma həsr olunmuş müşavirə keçirilib.

Müşavirəni açan DQİDK sədri Mübariz Qurbanlı respublikada dövlət səviyyəsində milli-mənəvi dəyərlərimizin qorunması, din siyasətinin həyata keçirilməsi, dövlət-din münasibətlərinin formalaşması və inkişafı istiqamətində görülən işlər, mövcud dini durum, eyni zamanda müzakirə olunacaq məsələlər barədə ətraflı məlumat verib.





Çıxışı zamanı sentyabrın 1-nə təsadüf edən Məhərrəm ayında bütün mərasimlərin qanunvericilik çərçivəsində təşkilinə, Azərbaycan xalqının, İslam dininin yüksək mədəni normalarına uyğun keçirilməsinin vacibliyinə də toxunan Komitə sədri bu istiqamətdə Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ilə birlikdə əvvəlcədən maarifləndirmə məqsədilə hazırlıq işlərinin görüldüyünü, Komitə tərəfindən Tədbirlər Planının hazırlandığını bildirib. Müvafiq Tədbirlər Planına əsasən Bakı şəhəri də daxil olmaqla respublikanın müxtəlif bölgələrində maarifləndirici tədbirlərin, görüşlərin keçirildiyini nəzərə çatdıran Mübariz Qurbanlı qeyd edib ki, əsas məqsəd bu mərasimlərin bütün məscidlərdə qanunun tələblərinə və QMİ-nin fətvasına uyğun şəkildə yerinə yetirilməsidir.

Daha sonra DQİDK-nın bölgə şöbə müdirləri regionlardakı dini durum, din adı altında qanunvericiliyə və milli maraqlara zidd təbliğatın aparılmasının qarşısının alınması istiqamətində aidiyyəti qurumlarla birgə görülmüş profilaktik işlər, o cümlədən təziyə məclislərinin məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə təşkil olunması, İslam qaydalarına uyğun formada həyata keçirilməsi ilə bağlı atılan qabaqlayıcı addımlar barədə danışıblar.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov dini mərasimlərin mahiyyətinə uyğun, xurafat elementlərindən uzaq təşkil edilməsinin vacibliyinə diqqət çəkib. Şöbə müdiri Məhərrəm ayı zamanı Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə talassemiya və hemofiliya xəstələri üçün keçirilən ənənəvi qanvermə aksiyasının xüsusi önəm daşıdığını vurğulayıb. E.Nəcəfov təziyə mərasimlərində Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ müharibəsi zamanı şəhid olan soydaşlarımız və qazilərimizin də anılmasının zəruriliyini qeyd edib.

Sonda müzakirə olunan məsələlərlə bağlı şöbə müdirlərinə müvafiq tapşırıq və tövsiyələr verilib.

# «AŞURA MƏRASİMLƏRİ: ƏNƏNƏVİLİK VƏ MÜASİRLİK» MÖVZUSUNDA SEMİNAR-MÜŞAVİRƏ KEÇİRİLİB



Avqustun 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Gəncə Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "Aşura mərasimləri: ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib.

Tədbirdə DQİDK, Gəncə, Daşkəsən icra hakimiyyətlərinin rəhbər şəxsləri, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəsi, din xadimləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Gəncə ŞİH-in başçısı Niyazi Bayramov bildirib ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin davam və inkişaf etdirdiyi dövlət-din münasibətlərinin əsas prinsiplərindən biri milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasıdır. Bu istiqamətdə həyata keçirilən dini maarifləndirmə tədbirlərinin əhəmiyyətini yüksək qiymətləndirən ŞİH başçısı ənənəvi İslam dəyərlərinin öyrənilməsinin və düzgün təbliğ olunmasının vacibliyinə toxunub.

DQİDK sədri Mübariz Qurbanlı vurğulayıb ki, milli-mənəvi dəyərlərin qorunması, tolerant, multikultural ənənələrin təbliği və təşviqi Dövlət Komitəsinin dini maarifləndirmə sahəsində gördüyü işlərin əsas istiqamətini təşkil edir. Onun sözlərinə görə, Azərbaycanda bu ənənələrin inkişafı və möhkəmlənməsi üçün bütün zəruri şərait var və biz də bundan istifadə edərək öz dəyərlərimizin təbliği istiqamətində var gücümüzlə çalışırıq. "Bu gün qarşımızda duran əsas məsələlərdən biri dini radikalizmə, xurafat elementlərinə qarşı mübarizədir", - deyə Komitə sədri qeyd edib. O bildirib ki, din adı altında İslamı gözdən salmağa cəhd edən qrupların, dairələrin bu gün Yaxın Şərqdə "fəaliyyətinin" mənfi nəticələri görünür. Mənəvi dəyərlərimizin tərkib hissəsi olan İslamın yad təsirlərdən qorunmasının vacibliyinə toxunan M.Qurbanlı Dövlət Komitəsinin apardığı maarifləndirmə işi, qabaqlayıcı tədbirlər, o cümlədən DQİDK-nın QMİ, yerli icra strukturları və digər qurumlarla birgə səmərəli fəaliyyətinə diqqət çəkib.

Komitə sədri, eyni zamanda Məhərrəm ayında keçirilən dini mərasimlər zamanı qanunvericiliyin tələblərinə və QMİ Qazılar Şurasının verdiyi fətvada qeyd olunan tövsiyələrə əməl olunmasının vacibliyinə toxunub.

QMİ-nin səlahiyyətli nümayəndəsi, Gəncə şəhəri "İmamzadə ziyarətgah" məscidi dini icmasının sədri Tahir Abbasov da dinə dövlət qayğısından danışıb, xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli-mənəvi dəyərləri qoruyub saxlamağın əhəmiyyətini vurğulayıb.

Seminar-müşavirə müzakirələrlə işini yekunlaşdırıb.

# «MÜASİR ÇAĞIRIŞLAR: DİNİ DURUM VƏ VƏZİFƏLƏR»

Avqustun 27-28-də Daşkəsəndə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Daşkəsən Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans keçirilib.



Regional konfransda DQİDK və Daşkəsən RİH-in rəhbər şəxsləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət fəalları iştirak ediblər.

Əvvəlcə DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə çəkilmiş "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filminin nümayişi olub.

Konfransda çıxış edən Daşkəsən RİH-in başçısı Əhəd Abıyev bildirib ki, ölkəmizdə milli-mənəvi dəyərlərimizin yaşadılmasına, o cümlədən yeni dini məbədlərin inşasına, mövcud olanların isə əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət göstərilir. Prezident İlham Əliyevin sərəncamları ilə son illər bir çox tarixi dini abidə və ziyarətgahlar bərpa edilir, dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisi olaraq silsilə beynəlxalq tədbirlər keçirilir. Ölkəmizdəki tolerantlıq ənənələrinin daha da möhkəmləndirilməsi istiqamətində atılan addımlar nəticəsində Azərbaycan dünyada multikulturalizmin əsas mərkəzinə çevrilib.

Rayondakı mövcud dini durum barədə məlumat verən icra hakimiyyətinin başçısı qeyd edib ki, Daşkəsəndə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə riayət olunur, həmçinin dini durumun sabitliyi və dini etiqad azadlığı sahəsində Konstitusiya prinsiplərinin qorunması təmin edilir.

DQİDK sədri Mübariz Qurbanlı dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-dini dözümlülük, sülhsevərlik və humanizm dəyərlərinin önəmindən, dini radikalizm və xurafat elementlərinə qarşı mübarizədə maarifləndirmənin əhəmiyyətindən söz açıb.

Bildirib ki, Dövlət Komitəsinin sifarişi ilə maarifçilik işinin effektivliyini artırmaq məqsədilə bir neçə sənədli film hazırlanıb: "Buna misal olaraq "Şəhadət", "Fitnə", "Üfüqdəki gələcək" kimi filmləri göstərmək olar. Bu cür filmlərin nümayişi xüsusilə gənc nəslin tərbiyəsində, maariflənməsində mühüm əhəmiyyətə malikdir. Konfransda nümayiş etdirilən, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın milli-mənəvi dəyərlərinə yüksək həssaslıqla yanaşmasından, bu sahədə göstərdiyi misilsiz xidmətlərdən bəhs edən sənədli film də bu qəbildəndir. Filmdə nümayiş olunan Heydər Əliyevin milli kimliyimizin, soy-kökümüzün, tariximizin qorunması, milli-mənəvi dəyərlərimizin yaşadılması uğrunda apardığı mübarizə hər bir vətəndaşımıza, xüsusilə gənclərimizə örnəkdir".

Komitə sədri vurğulayıb ki, dilimiz, dinimiz, milli kimliyimiz, milli əxlaqımız, ailə dəyərlərimiz, himnimiz, gerbimiz, bayrağımız bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Milli-mənəvi dəyərlərimizi qorumaq və gənc nəsillərə ötürmək üçün bütün gücümüzü səfərbər etməliyik, bu, bizim vəzifəmizdir.

Bu gün dünyada dindən sui-istifadə hallarının çox geniş xarakter aldığını qeyd edən M.Qurbanlı müxtəlif ölkələrdə din adı altında ekstremist, radikal qrupların yarandığını deyib. Bildirib ki, həmin qruplar bir-birini



qəbul etməmə istiqamətində təbliğat aparırlar ki, bu da böyük faciələrə, toqquşmalara gətirib çıxarır. Dünyəvi dövlətçilik prinsiplərinin qorunub saxlanılması və dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizm və ekstremizmə çevrilməsinin qarşısının alınmasının vacibliyini vurğulayan Komitə sədri insanları birliyə, vəhdətə çağıran dinlərin mahiyyətindən uzaqlaşdırılaraq kimlərinsə əlində radikal, ekstremist, xurafat, antimilli formaya çevrilməsinin yolverilməz olduğunu deyib. Əlavə edib ki, biz özümüzü bu cür təhdidlərdən, belə problemlərdən qorumaq üçün üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməliyik. Yeni gələn nəsillər milli ruhda, dilinə, dininə, mədəniyyətinə sədaqət ruhunda tərbiyə edilməlidir. Prezident İlham Əliyevin siyasəti də məhz bu istiqamətə yönəlib ki, biz öz gücümüzü, qüdrətimizi qorumalıyıq və din pərdəsi adı altında Azərbaycan əleyhinə istifadəyə imkan verməməliyik.

Konfrans işini avqustun 28-də Daşkəsən rayon Heydər Əliyev Mərkəzində "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirib.

Tədbiri giriş sözü ilə açan Daşkəsən RİH-in məsul əməkdaşı Elmar Əliyev Prezident cənab İlham Əliyevin dinə və dindarlara diqqət və qayğısından bəhs edib, rayondakı dini durum barədə ətraflı məlumat verib.

Təqdimatla çıxış edən DQİDK sədrinin müavini Gündüz İsmayılov bildirib ki, tarixən müxtəlif etnomədəni qrupların və dini konfessiyaların birgə yaşadığı ölkəmizdə multikulturalizm siyasətinin banisi Ulu Öndər Heydər Əliyevdir. Ümummilli Liderin bu siyasəti dövlət başçımız tərəfindən uğurla davam etdirilir.

Natiq ölkəmizdəki dini durum, dini icmaların fəaliyyəti, dövlətin dinə qayğısı və tolerantlıq siyasəti barədə danışaraq qeyd edib ki, dövlət-din münasibətləri qanunvericiliklə tənzimlənir. G.İsmayılov deyib ki, dini radikalizmlə mübarizənin gücləndirilməsi və milli-mənəvi dəyərlərin qorunub saxlanılması məqsədilə dini maarifləndirmə işinin aparılması zəruridir.

"Hansısa cəmiyyətdə təhsil və dini biliklər paralel şəkildə insanlara çatdırılmırsa, xurafatın yayılması qaçılmazdır. Yad dini ideologiyaların təsiri altına düşənlərin dini bilgilərinin zəif olması ehtimalı böyükdür", - deyə Dövlət Komitəsinin sədr müavini əlavə edib.

Rayon Təhsil Şöbəsinin müdiri Zaur Məmmədov və Rayon Gənclər və İdman İdarəsinin rəisi Samir Həsənov mövzu ilə bağlı fikirlərini bildiriblər, keçirilən tədbirlərin gənclərin dini radikalizmə qarşı maariflənməsində önəminə diqqət çəkiblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb və DQİDK tərəfindən nəşr olunan kitablar paylanılıb.

# Dövlət Komitəsinin rəhbərliyi vətəndaşların müraciətlərini dinləyib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu sədvəlinə uyğun olaraq, avqustun 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Daşkəsən, sədr müavini Səyavuş Heydərov Göygöl rayonlarında, sədr müavini Gündüz İsmayılov isə Naftalan şəhərində vətəndaşları qəbul ediblər.



Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev qəbuldan əvvəl Daşkəsən şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin ucaldılmış abidəsi önünə gül dəstələri qoyaraq, Ulu Öndərin əziz xatirəsini ehtiramla anıblar.

Daşkəsən, Göygöl, Naftalan, Gəncə, Kəlbəcər, Samux, Goranboy və Xocalı sakinlərinin iştirak etdiyi qəbullarda əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciətlərə baxılıb. Qəbul zamanı hər bir vətəndaşın müraciətinin diqqətlə araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli barədə müvafiq tapşırıqlar verilib, müraciətlərin bir qismi isə yerindəcə həll olunub.

Qəbullarda iştirak edən vətəndaşlar müraciətlərə baxılması üçün yaradılan şəraitdən razılıq edərək, göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# YÜKSƏK SOSİAL RİFAHA VƏ MƏDƏNİ-MƏNƏVİ TƏRƏQQİYƏ XİDMƏT EDƏN NƏCİB MİSSİYA

Dinamik inkişaf yolunda olan müstəqil Azərbaycanın beynəlxalq aləmdə geniş təbliği, humanist və milli-mənəvi dəyərlərə sadiq dövlət imicinin formalaşdırılması istiqamətində atılan addımlar təkcə rəsmi tədbirlərlə məhdudlaşmır. Son 15 ildə cəmiyyətdə əlahiddə statuslu qeyri-hökumət təşkilatı kimi fəaliyyət göstərərək milyonlarla insanın ümid və pənah yerinə çevrilmiş Heydər Əliyev Fondu da bu missiyanın əsas daşıyıcılarından biri kimi çıxış edir.

Qısa zamanda böyük uğurlara imza atan, inkişafyönümlü layihələri gerçəyə çevirən, fəaliyyətini qloballaşan dünyanın yeni aktual çağırışlarına adekvat şəkildə qurmağı bacaran fond Azərbaycanı beynəlxalq miqyasda layiqincə təmsil edərək milli mənafeləri qoruyur.

Təkcə Azərbaycanda deyil, ölkəmizin sərhədlərindən kənarda da böyük rəğbət qazanan, hər zaman köməyə, yardıma ehtiyac duyanların yanında olan Heydər Əliyev Fondu Ulu Öndərin ideallarını rəhbər tutaraq ümumbəşəri mədəniyyətə, sülhə və əmin-amanlığa sanballı töhfələrini verir. Qloballaşan dünyada Ümummilli Liderin azərbaycançılıq fəlsəfəsinin əhəmiyyətini vurğulamaq niyyətinə köklənən fond milli irsin, habelə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında da əvəzsiz xidmətlər göstərir.



Azərbaycan Prezidenti cənab İlham Əliyevin Ümummilli Liderin xatirəsinin əbədiləşdirilməsini nəzərdə tutan 10 mart 2004-cü il tarixli fərmanında ictimai əsaslarla yaradılması dəstəklənən fondun fəaliyyəti yalnız insanlara yüksək diqqət və qayğı nümunələri ilə, habelə humanist aksiyalarla məhdudlaşmır. Fond Azərbaycan mədəniyyəti, incəsənəti, musiqisi, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətlər barəsində beynəlxalq ictimaiyyətin dolğun şəkildə məlumatlandırılması sahəsində də mühüm nailiyyətlərə imza atmışdır. Yaranışı böyük amallardan rişələnən, milli dövlətçilik ideyalarını yeni nəsillərə çatdırmaq və aşılamaq kimi müqəddəs ideyalara xidmət edən, 2004-cü ilin mayında - Ümummilli Liderin ad günündə açılışı olan Heydər Əliyev Fondu bu gün yardıma ehtiyacı olan hər kəsin ümid yerinə, istinadgahına çevrilmişdir.

Ötən 15 ildə fond Azərbaycanın ictimai həyatında necə böyük rol oynadığını, qarşıya qoyduğu məqsədlərin əhəmiyyətinə, miqyasına və sanbalına görə ölkəmizdə analoqu olmayan qeyri-dövlət qurumu olduğunu sübuta yetirmişdir. Yerli əhəmiyyətli sosial problemlərin həllinə, insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardımçı olmaq Heydər Əliyev Fondunun məqsədləri sırasında öncül yerlərdən birini tutur. Azərbaycanın, azərbaycançılığın, tolerantlıq və multikulturalizm kimi mütərəqqi dəyərlərin qorunması, uşaq və gənclərin hərtərəfli biliyə malik vətəndaş kimi yetişdirilməsi, milli həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması fondun genişmiqyaslı fəaliyyətinin mühüm məqamları kimi xüsusi vurğulanmalıdır.

Ümumiyyətlə, fondun məqsədlərini ümumi şəkildə aşağıdakı ardıcıllıqla qruplaşdırmaq olar: Ulu Öndər Heydər Əliyevin ölkəmizin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünyaya inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək; elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya kimi sahələri əhatə edən proqram və layihələri hazırlayıb həyata keçirmək; Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etmək; uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etmək; dini tolerantlığın, multikulturalizmin bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək vermək!

İnsanlığın yüksəlişinə xidmət edən nəcib və humanist dəyərlərin inkişafına, fərqli mədəniyyətlərin dialoquna çalışan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri də xüsusi vurğulanmalıdır. Onun əzmkarlığı, təşəbbüskarlığı, həyata keçirilən proqram və layihələrə, ümumən Heydər Əliyev Fondunun işinə kreativ münasibəti Ulu Öndərin adını daşıyan təşkilatın öz fəaliyyətində kifayət qədər geniş spektri əhatə etməsini şərtləndirən başlıca amillərdəndir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva qloballaşma şəraitində insan amilinə həssas münasibətin vacibliyini xüsusilə vurğulayır: "Bu gün biz müasir texnika və qloballaşma əsrində yaşayırıq. Fikrimcə, zəmanənin ən böyük təzadlarından biri ondan ibarətdir ki, əldə edilən tərəqqi, kommunikasiya imkanları insanların birləşməsinə, daha sıx ünsiyyət qurmasına şərait yaratsa da, gerçək həyatda biganəlik, insanlar arasında uçurum artır. Bəzən nəinki bəşəriyyətin səsini eşitmirik, hətta qonşu qonşunu eşitmir, qardaş qardaşa kömək əlini uzatmır. Bu gün dünyanın qarşılaşdığı ən ağrılı problemlərdən biri mənəvi idealların ucuzlaşması, onların saxta ideallarla əvəz edilməsidir".

z

2004-cü ildən etibarən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın ictimai həyatına gətirdiyi yeniliklər isə onun rəhbərliyi altında fəaliyyət göstərən fondların işi ilə məhdudlaşmayaraq daha genişmiqyaslı xarakter daşımışdır. Bunlardan biri də Azərbaycanda "birinci xanım" və yaxud "birinci ledi" institutunun geniş mənada məhz Mehriban xanım Əliyevanın adı ilə bağlı olması, həmçinin sözügedən anlayışın Azərbaycan leksikonuna 2003-cü ilin oktyabrından sonra onun simasında daxil edilməsidir. Mehriban xanım Əliyeva bu ictimai vəzifəsi ilə daim Azərbaycan xalqına yaxın olduğunu sübuta yetirmiş, Şərq mədəniyyətində birinci xanım tituluna daha geniş rakursdan yanaşılmasına yol açmış, eyni zamanda, "birinci ledi" statusunun kifayət qədər məsuliyyətli yük olduğuna diqqət çəkərək demişdir: "Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür".

Həyata keçirdiyi layihələr, irəli sürdüyü nəcib və xeyirxah təşəbbüslər təkcə Azərbaycanda yox, beynəlxalq miqyasda da Mehriban xanım Əliyevanın dərin inam və etimad qazanmasına, nəcib missiyalar daşıyıcısı və Azərbaycan mədəniyyətinin fəal təbliğatçısı kimi tanınmasına səbəb olmuşdur. Bunun məntiqi nəticəsi kimi Mehriban xanım Əliyevanın 2004-cü ilin sentyabrında UNESKO-nun xoşməramlı səfiri seçilməsi də tamamilə məntiqəuyğun hadisə olmuşdur. Ölkəmizin birinci xanımı yeni statusla bu mötəbər təşkilatda təkcə Azərbaycanın deyil, bütün türk xalqlarının mədəni irsinin təbliğatçısı kimi şərəfli missiyanı yerinə yetirmək imkanı qazanmışdır. Hələ 2004-cü ilin dekabrında Kazan şəhərində (Tatarıstan) UNESKO-nun qeyri-maddi mədəni irsin qorunmasına dair regional seminarında Mehriban xanım bu yöndə konkret təşəbbüslə çıxış edərək türk xalqlarının mədəniyyətini əhatə edən regional layihələrin hazırlanacağını bildirmişdir.

Mehriban xanım Əliyevanın UNESKO-nun xoşməramlı səfiri seçilməsi ilə Heydər Əliyev Fondunun Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması sahəsindəki fəaliyyəti bir qədər də genişlənmişdir. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, Azərbaycanın bir sıra görkəmli alimlərinin, yazıçı və bəstəkarların yubileylərinin keçirilməsi bu fəaliyyətin mühüm nəticələri kimi diqqəti çəkir.

UNESKO xəttilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı reallıqların dünyaya çatdırılması da fondun fəaliyyətində mühüm istiqamətlərdən olmuşdur. Təşkilatın xətti ilə hazırlanmış musiqi albomuna "Qarabağ xanəndələri" adının qoyulması yolu ilə Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğu, muğamın isə bu torpağın dünyaya bəxş etdiyi nadir sənət nümunəsi sayıldığı nümayiş etdirilmişdir. Fondun təşəbbüsü ilə "Qarabağ" adlı kitabın çapa hazırlanması və işıq üzü görməsi Azərbaycanın, Qarabağın tarixi keçmişinin öyrənilməsi və dünyada təbliği baxımından böyük əhəmiyyət daşımışdır.

Mehriban xanım Əliyevanın UNESKO xətti ilə keçirilən tədbirlər çərçivəsində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş əraziləri, həmin ərazilərdə Azərbaycan xalqına məxsus tarixi, mədəni və dini abidələrin dağıdılmasına toxunmayan bir çıxışını belə xatırlamaq çətindir. O, təkcə çıxışlarında deyil, rəhbərlik etdiyi təşkilatların fəaliyyətində də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində böyük işlər görür. Dünyanın bir çox dillərində nəşr olunmuş "Azərbaycan həqiqətləri" adlı kitabda Qarabağın tarixi, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi, Xocalıda törətdikləri soyqırımı, erməni terror təşkilatlarının dinc azərbaycanlılara, türk insanına qarşı törətdiyi vəhşiliklər barədə dolğun məlumatlar əksini tapmışdır. Bundan başqa, Fond Ermənistanın Xocalı şəhərində törətdiyi soyqırımını dünya ictimaiyyətinə çatdırmaq üçün bir neçə dildə sənədli film hazırlamışdır.

UNESKO-nun xoşməramlı səfiri olaraq Mehriban xanım Əliyeva Azərbaycan dili və ədəbiyyatının təbliğində də mühüm rol oynayır. Fransanın məşhur ali məktəblərindən olan Şərq Dilləri və Mədəniyyətləri İnstitutunda (INALCO) Azərbaycan dili fakültəsinin fəaliyyətə başlaması, Azərbaycan ədiblərinin, elm xadimlərinin, ziyalılarının UNESKO səviyyəsində yubileylərinin təşkil olunması azərbaycançılıq ideyasının dünyada təbliği yolunda görülən işlərin tərkib hissəsidir.

2009-cu ilin mart ayında Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Bakıda keçirilən Beynəlxalq muğam festivalı isə Azərbaycan mədəniyyətinin, musiqisinin bütün dünyada tanıdılması və təbliği istiqamətində mühüm tədbirlərdən biri kimi yadda qalmışdır. Son 10 ildə Azərbaycan televiziyası ilə yayımlanan muğam müsabiqələri isə istedadlı muğam ifaçılarının üzə çıxarılması, dəstəklənməsi baxımından daha bir uğurlu layihə kimi özünü təsdiqləmişdir.

davamı səh. 8

# YÜKSƏK SOSİAL RİFAHA VƏ MƏDƏNİ-MƏNƏVİ TƏRƏQQİYƏ XİDMƏT EDƏN NƏCİB MİSSİYA

əvvəli səh.7

2011-ci ilin may ayında Azərbaycanın gənc ifaçılarının Almaniyada keçirilən "Avrovizion-2011" musiqi yarışmasındakı parlaq qələbəsində də fondun təşkilatçılığı və dəstəyi mühüm rol oynamışdır. Heydər Əliyev Fondunun prezidentinin "Avrovizion-2012"nin Bakıda keçirilməsi ilə bağlı yaradılmış Təşkilat Komitəsinin sədri təyin edilməsi də bu mənada təsadüfi deyildi. Azərbaycanın birinci xanımının rəhbərliyi altında musiqi festivalına hazırlıq işləri uğurla həyata keçirilmiş və bütün lazımi tədbirlər görülmüşdür. "Avrovizion-2012"nin Azərbaycanda yüksək səviyyədə təşkili milli-mənəvi dəyərlərimizin bəşəri dəyərlər müstəvisində özünəməxsus yer tutmasında mühüm hadisə olmuşdur.

Xüsusi vurğulamaq lazımdır ki, bir müddət əvvəl - 2019-cu il iyulun 7-də UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Bakı Konqres Mərkəzində keçirilən iclasda Azərbaycanın Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin sözügedən mədəniyyət qurumunun Ümumdünya İrs Siyahısına daxil edilməsi ölkəmizin zəngin mədəni xəzinəsinin təbliği və mühafizəsi yönümündə aparılan siyasətin növbəti böyük uğuru olmuşdur. İndiyədək Heydər Əliyev Fondunun rəhbərinin misilsiz xidmətləri sayəsində Azərbaycanın xalça sənəti, muğam sənəti, tar ifaçılığı, aşıq sənəti, habelə Novruz bayramı, çövkən atüstü oyunu, qadın baş geyimi olan kəlağayı təşkilatın Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilmişdir.

Şübhəsiz, tarixi Xan sarayının və iki min ilə yaxın tarixi olan Şəki şəhərinin mərkəzi hissəsinin UNESKO-nun Ümumdünya Maddi İrs Siyahısına salınması ilk növbədə ötən illərdə Azərbaycanın təşkilatla münasibətlərinin yüksək səviyyədə qurulduğunu, qarşılıqlı faydalı əlaqələrdən ölkəmizin mənafelərinə uyğun səmərəli istifadə olunduğunu göstərir. 180-dən çox ölkədən 2500 nəfərdən çox nümayəndənin iştirak etdiyi sessiyada qəbul olunan tarixi qərar ilk növbədə Azərbaycanın təkcə paytaxtının deyil, regionlarının da malik olduğu zəngin maddi-mənəvi irsin dünya mədəni inciləri kimi qəbul olunduğunu, yüksək qiymətləndirildiyini göstərir. Bu qərar həm də onu göstərir ki, UNESKO Azərbaycanda aparılan islahatları, o cümlədən mədəni irsin qorunması sahəsindəki ardıcıl siyasəti izləyir və təqdir edir. İkitərəfli əlaqələrin son 15 ildə yüksək səviyyədə qurulmasında, respublikamızın təşkilat daxilində maraq və mənafelərinin layiqincə təmin edilməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın xidmətləri də xüsusi qeyd olunmalıdır.

Heydər Əliyev Fondunun rəhbəri, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xeyirxah, nəcib və savab əməlləri də müsəlman dünyasında yüksək dəyərləndirilmişdir. İslami inanclara və milli-mənəvi dəyərlərə yüksək həssaslıq nümayiş etdirən Azərbaycanın birinci xanımının fəaliyyəti İslam Konfransı Təşkilatına üzv dövlətlər tərəfindən daim təqdir edilir. 2006-cı ildə Mehriban xanım Əliyevanın İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) xoşməramlı səfiri adına layiq görülməsi bütövlükdə Azərbaycanın qazandığı böyük nailiyyət olmuşdur. Qürur doğuran haldır ki, ISESCO-nun xoşməramlı səfiri adı qadınlar arasında ilk dəfə məhz Mehriban xanım Əliyevaya verilmişdir.

Fondun vitse-prezidenti və Moskva nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın İslam Konfransı Təşkilatının Gənclər Təşkilatı ilə əməkdaşlıq çərçivəsində "Xocalıya ədalət!" kampaniyasına start verməsi də bəşər tarixində ən dəhşətli cinayətlərdən olan Xocalı soyqırımı ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədi daşıyır. Bu kampaniya İKT Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın 2008-ci il mayın 8-də irəli sürdüyü təşəbbüs əsasında həyata keçirilir. Tunisdə ISESCO-nun Baş Assambleyasının 10-cu sessiyasında imzalanmış protokol "Xocalıya ədalət!" Beynəlxalq Məlumat Təşviqat kampaniyasına dəstək verilməsini və dünya miqyasında təhsil, elm və mədəniyyət sahələrində birgə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Aksiyanın əsas məqsədi beynəlxalq birliyi Xocalı faciəsi haqda ədalətli məlumatlandırmaqdır. Bu məqsədlə son illərdə dünyanın bir çox ölkəsində "Xocalıya ədalət!" veb-saytının təqdimetmə mərasimləri keçirilmişdir.

Bundan əlavə, İslam Konfransı Təşkilatına üzv ölkələr fondun Rusiya nümayəndəliyinin təşəbbüsünü dəstəkləyərək 26 Fevral - Xocalı Soyqırımı Gününün "Humanitar Fəlakətlər Qurbanlarının Xatirəsini Anma Günü" kimi qeyd olunması barədə qərar qəbul etmişlər. 2009-cu ildən 26 Fevral tarixi İslam Ölkələrində Humanitar Fəlakətlər Qurbanlarının Xatirəsini Anma Günü kimi geniş miqyasda qeyd olunur.

Həm UNESKO, həm də ISESCO ilə qurulmuş yüksək əlaqələr onu deməyə əsas verir ki, Azərbaycanın sivilizasiyalar və mədəniyyətlərarası dialoqla bağlı nümunəvi dövlət qismində çıxış etməsi, Qərblə Şərq, Qərblə İslam dünyası arasında önəmli, etibarlı bir körpü rolu oynaması və bununla bağlı dünyada müsbət düşüncənin formalaşmasında Azərbaycan Prezidenti cənab İlham Əliyevlə yanaşı, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın da böyük xidmətləri vardır.

Hələ 2008-ci ildə Bakıda Mehriban xanım Əliyevanın təşəbbüsü, UNESKO-nun və ISESCO-nun dəstəyi ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Beynəlxalq Bakı Forumu sivilizasiyalararası dialoq, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, ümumbəşəri konsolidasiya prosesində qadınların rolunun araşdırılması, bu yönümdə konkret fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından vacib əhəmiyyət kəsb etmişdir. Bu forum Mehriban xanım Əliyevanın şəxsində müasir Azərbaycan qadınının qlobal proseslərdə fəal iştirakını və təşəbbüskarlığını bütün dünyaya aşkarlamışdır. Bakı forumu həm də fərqli mədəniyyətlərin dialoqu prosesində qadınların rolunun araşdırılması və ümumi səylərinin bu yöndə səfərbər olunması, nəcib, humanist təşəbbüslərin dəstəklənməsi məqsədi daşımışdır.

Son illər Heydər Əliyev Fondunun təşəbbüsü, UNESKO və ISESCO-nun iştirakı ilə Bakıda təşkil olunmuş yüksəksəviyyəli beynəlxalq tədbirlərdə dünyada sülh və sabitliyin möhkəmləndirilməsi, mədəniyyətlərarası dialoqun, dini-etnik tolerantlığın genişləndirilməsi, qadın hüquqlarının qorunması, savadsızlığın, irqi və dini ayrı-seçkiliyin aradan qaldırılması kimi nəcib ideyalar üstünlük təşkil etmişdir.

Heydər Əliyev Fondunun prezidentinin mədəniyyətlərarası dialoq və əməkdaşlığın vacibliyi ilə bağlı fikirləri də diqqətçəkicidir: "Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin çox qədim və çox möhkəm kökləri vardır. Əsrlər boyu Azərbaycan Şərqlə Qərb arasında körpü rolunu oynamışdır. Xalqımızın ən gözəl xüsusiyyətlərindən biri bütün millətlərə, bütün dinlərə, bütün mədəniyyətlərə böyük hörmətlə yanaşmasıdır. Hesab edirəm ki, bugünkü gərgin dünyada bu, çox gözəl və böyük bir sərvətdir. Biz inanırıq ki, yalnız dözümlülük vasitəsilə insanları bir araya gətirmək olar. Biz buna səy göstəririk".

2015-ci ildə ilk Avropa Oyunları, 2016-2019-cu illərdə isə "Formula-1" yarışları zamanı da respublikamız nümayiş etdirdiyi yüksək təşkilatçılıq, qonaqpərvərlik nəticəsində Avropanın təkcə iqtisadi deyil, mənəvi-intellektual, mədəni baxımdan zəngin, multikultural ölkəsi olduğunu sübuta yetirmişdir. Bu tədbirlərin hər birinin yüksək səviyyədə keçirilməsi ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı ilə yanaşı, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı, kreativ idarəetmə üslubu, ən başlıcası, Azərbaycanı dünyaya sivil, müasir, inkişaf edən dövlət kimi təqdim etmək məramının nəticəsi idi. Təsadüfi deyil ki, dövlət başçısının IV İslam Həmrəyliyi Oyunlarına hazırlıq məqsədilə yaratdığı komissiyaya da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva rəhbərlik etmişdir. "Evrovizion" musiqi yarışmasında və ilk Avropa Oyunlarında olduğu kimi, IV İslam Həmrəyliyi Oyunlarına hazırlıq da xüsusi plan üzrə, sistemli və ardıcıl şəkildə, yüksək zövqlə həyata keçirilmişdir.

Ümumiyyətlə, Heydər Əliyev Fondunun fəaliyyətində sivilizasiyalar arasında ən mühüm problemlərdən biri olan multikulturalizm məsələsi önəmli yerlərdən birini tutur. Son illərin ən funksional terminlərindən olan "multikulturalizm" anlayış baxımından, əslində, qədimlərə gedir. Bu anlayışın mahiyyətində cəmiyyəti daha çox ədalət, mərhəmət kimi ümumbəşəri ideyalara təşviq etmək cəhdləri də var. Multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır.

Dünyanın çoxmillətli dövlətlərindən olan Azərbaycan dövləti də hər bir azərbaycanlının vətənidir. Azərbaycan Respublikasında kompakt şəkildə müxtəlif etnosların nümayəndələri yaşayır və onların hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini, etnik özünüdərketmə və etnopsixologiyasını qoruyub saxlayan unikal xüsusiyyətlərin daşıyıcılarıdır. Ölkəmizdə müxtəlif dinlərə, millətlərə, etnik azlıqlara məxsus xalqlar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Dövlət onlara öz adət-ənənələrini, dillərini qoruyub saxlamaq üçün bütün şəraiti yaratmışdır. Etnik azlıqlara da tam bərabər mədəni hüquqlar və ölkənin mədəni irsindən istifadə hüququ verilmişdir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi: "Yüksək dərəcədə dözümlülük, ümumbəşəri dəyərləri milli dəyərlərlə uzlaşdırmaq qabiliyyəti, mədəni və dini müxtəlifliyə hörmət - bütün bunlar Azərbaycan xalqının əsrlər boyu formalaşmış xasiyyətini təşkil edir".

Son illərdə Bakıda keçirilmiş Bakı Beynəlxalq Humanitar forumları müxtəlif ölkələrin dövlət siyasətində multikulturalizmin mövqe və imkanlarının bir daha təhlilinə, etnik və mədəni özünüdərk arasında azad seçimin təmin olunmasına, azadlıq, bərabərlik və dözümlülük kimi təməl dəyərlərin cəmiyyətdə bərqərar olmasına yönələn qlobal miqyaslı tədbirlər olaraq, dünyanın ən yeni tarixinə əhəmiyyətli hadisə kimi daxil olmuşdur. Bütün bu nailiyyətlərin əldə olunmasında, bəşəriyyət üçün müstəsna əhəmiyyət kəsb edən bu cür təşəbbüslərin irəli sürülməsi və uğurla reallaşmasında Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri vardır.

Ölkəmizdə tolerantlıq ənənələrinin qorunması işinə xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsini də uğurla həyata keçirir. Layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılmış, eyni zamanda "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik təhsil mərkəzi inşa edilmişdir. Fondun rəhbərinin vurğuladığı kimi: "Dini multikulturalizm köklərinə malik ölkə kimi Azərbaycan qlobal arenada bu dəyərlərin təşviqi üçün vacib rolunu oynamağa hazırdır. Ölkəmiz müxtəlif dini, mədəni və tarixi abidələrin qorunub saxlanmasına da öz töhfəsini verir".

Heydər Əliyev Fondunun təşəbbüsü ilə bərpa işləri aparılmış dini abidələrdən biri də Binə qəsəbəsindəki Möhsün Səlim məscidi olmuşdur. Binə qəsəbəsində yerləşən Möhsün Səlim məscidinin qəza vəziyyətində olması barədə qəsəbə ağsaqqallarının müraciətindən sonra bina memarlıq üslubu qorunub saxlanılmaqla əsaslı təmir edilmişdir. Eyni zamanda, Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncə şəhərindəki Həzrəti Zeynəb məscidi yenidən qurulmuş, Buzovna qəsəbəsindəki Cümə məscidində yenidənqurma işləri uğurla başa çatdırılmışdır.

davamı səh. 9

# YÜKSƏK SOSİAL RİFAHA VƏ MƏDƏNİ-MƏNƏVİ TƏRƏQQİYƏ XİDMƏT EDƏN NƏCİB MİSSİYA

əvvəli səh. 8

Təkcə azərbaycanlılara deyil, milli azlıqlara, digər səmavi dinlərin nümayəndələrinə məxsus tarixi abidələrin də eyni həssaslıqla qorunub saxlanılması, restavrasiya olunması xalqımızın yüksək tolerantlığını və multikultural dəyərlərə sadiqliyini nümayiş etdirir. Şəki şəhərinin Kiş kəndində yerləşən qədim alban apostol kilsəsinin də dövlət əhəmiyyətli tarixi abidə kimi mühafizə olunması bunu bir daha sübut edir.

Heydər Əliyev Fondunun rəhbəri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tolerantlıq və multikulturalizm sahəsində həyata keçirilən layihələrdən danışarkən demişdir: "Yarandığı ilk gündən Heydər Əliyev Fondu nəinki Azərbaycanın, eləcə də ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Biz bir sıra iri layihələr həyata keçirmişik. Bizim "Azərbaycan - tolerantlığın ünvanı" layihəmiz var. Bu layihə çərçivəsində həm müsəlman məscidləri, həm də xristian kilsəsi bərpa edilib, Azərbaycanda yaşayan yəhudi uşaqları üçün məktəb və mədəni mərkəz inşa olunub. Avropada biz Versal sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpasında, bir sıra digər layihələrdə də iştirak etmişik".

Heydər Əliyev Fondunun tolerantlıq və multikulturalizm konsepsiyası çərçivəsində respublikamız Pakistanın Müzəffərabad regionunda 2005-ci ildə zəlzələ nəticəsində dağılmış qızlar üçün məktəbin yenidən tikilməsi; Romada qədim Marçellinio və Pietro katakombalarının bərpası; Versal sarayının parkında tarixi abidələrin bərpası; Bosniya və Herseqovina, Gürcüstan, Macarıstan, Rumıniya, Rusiya və Serbiyanın bir sıra şəhərlərində məktəblərin, məscidlərin, kilsələrin, reabilitasiya mərkəzlərinin, tibb ocaqlarının və istirahət parklarının tikintisi; Fransanın Aşağı Normandiya regionunda 20-yə yaxın yerli kilsənin; Strasburq Soborunda şüşə vitrajların bərpası; Vatikanın Apostol Kitabxanasında qədim əlyazmaların bərpası və rəqəmsal formata salınması, Vatikan muzeylərində bir sıra abidələrin bərpası; Luvr muzeyində İslam incəsənəti şöbəsinin yaradılması; Bolqarıstanın Veliko Tırnovo şəhərində Trapezitsa Memarlıq Muzeyi Qoruğunun bərpası; Almaniyanın Berlin kilsəsinin bərpası; İtaliyada, Romada Kapitoli Muzeyində Filosoflar zalının bərpası prosesində yaxından iştirak etmişdir.

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin çoxşaxəli fəaliyyətində də mədəniyyətlərarası dialoq, tolerantlıq, multikulturalizm məsələlərinə xüsusi diqqət yetirilir. Fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın dəstəyi ilə Moskvada "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu. Bakı forumu" kitabının çapdan çıxması Azərbaycan reallıqlarını özündə ehtiva edən fakt kimi böyük diqqət və maraqla qarşılanmışdır. 2012-ci ilin noyabrında Londonda Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "Avropa multikulturalizminin perspektivləri: Dinlərarası dialoq və dini tolerantlığın Azərbaycan modeli" mövzusunda konfrans Azərbaycanın bütün dünyada sülhün, firavanlığın təmsil olunması yönündə həyata keçirdiyi siyasətə sanballı töhfə olmuşdur.

Xüsusi vurğulamaq istərdik ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi ölkədəki genişmiqyaslı islahatların tələbindən irəli gələn və cəmiyyətin mənafeyini özündə ehtiva edən tarixi qərar olmuşdur. Hazırda cəmiyyətdə mütləq çoxluğun birmənalı qənaəti budur ki, Heydər Əliyev Fondunun prezidenti olaraq vətənpərvər fəaliyyəti, humanizmə, mərhəmətə, nəcibliyə söykənən layihələri ilə böyük nüfuz qazanmış və yüksək idarəçilik keyfiyyətlərini təsdiqləmiş Mehriban xanım Əliyeva son iki ildə üzərinə götürdüyü məsuliyyətli missiya ilə ölkə başçısının və xalqın etimadını tamamilə doğruldur.

Nəcib və xeyirxah əməllərinə görə Mehriban xanım Əliyeva ötən illərdə müxtəlif beynəlxalq mükafatlara, fəxri adlara, təltiflərə layiq görülmüşdür.

Fondun son 15 ildə həyata keçirdiyi layihələr milli xüsusiyyətlər, yerli tələb və ehtiyaclarla çuğlaşaraq maraqlı və rəngarəng forma almışdır. Fond hansısa ayrıca götürülmüş sahənin inkişafı naminə fəaliyyət göstərmir - xeyriyyəçilikdən tutmuş ölkənin səhiyyə və təhsil sisteminin, mədəniyyət və incəsənətinin inkişafı, insan hüquqlarının qorunması, Azərbaycanın beynəlxalq aləmdəki imicinin formalaşmasına qədər müxtəlif sferalarda məhsuldar fəallıq nümayiş etdirir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva üzərinə götürdüyü çətin, fəqət xoşməramlı missiyasını layiqincə davam etdirir. Bu fəaliyyəti ilə o, həm də həyatının mənasını insanlara təmənnasız köməkdə, xeyirxah və nəcib əməllərdə axtaran, bəşəriyyətin nicatı, xilası üçün çalışan nəcib insanlarla bir sırada dayanır.

**Mübariz QURBANLI,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,
YAP icra katibinin müavini
***"Azərbaycan" qəzeti***
27 avqust 2019-cu il

# "BAŞ YARMAQ, QAN ÇIXARMAQ İSLAMA ZİDDİR, GÜNAHDIR"

***"Müxtəlif vaxtlarda eyni coğrafiyada ayrı-ayrı dinlər aparıcı rol oynayıb, amma bu dəyişkənlikdə həmin xalqlar öz əvvəlki dininə məxsus adətlərini tam itirməyiblər".***



Bunu Etikxeber.az-a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

Komitə sədrinin sözlərinə görə, dünyada dünyəvi, səmavi və lokal dinlər olub və var: "Dünya əhalisinin sayı bu gün təxminən 7,8 milyarddır. Əgər Xristianlığın, İslamın, İudaizmin nümayəndələrini üst-üstə gəlsəniz, görəcəksiniz ki, bu, heç 50 faizə də yaxınlaşmır. Yəni, hesablasaq, bütün səmavi dinlərin daşıyıcılarının sayı 4 milyard belə deyil. Belə bir sual meydana çıxır: – Bəs digər insanlar hansı dinin və ya dinlərin daşıyıcısıdır? Qalan hissə yenə də yaşadığı yerə, əraziyə məxsus dinlərin daşıyıcılarıdır. Afrika qitəsində, Latın Amerikasında, Cənub-Şərqi Asiyada, Hindistan ərazisində, onun ayrı-ayrı ştatlarında müxtəlif inancların, dinlərin daşıyıcıları olan insanlar var ki, səmavi dinlərə bağlı deyillər. Ona görə biz dünyaya baxanda buna yalnız İslam-Xristian dünyası, yaxud da İslam-İudaizm, İslam-Buddizm dünyası kimi baxmalı deyilik.

Dünyaya bütöv baxdıqda burada müxtəlif dinləri, onların daşıyıcılarını görəcəksiniz. Məhz bu səbəbdən bütün xalqların keçdiyi yola baxsaq, maraqlı faktların şahidi olarıq. Xristian dünyasına aid ölkələrdə miladdan əvvəl çoxallahlığa inam var idi. Bizim coğrafiyaya nəzər salsanız, görərsiniz ki, burada səmavi dinlər mövcud olub. Kökümüzə, keçmişimizə, miladdan əvvələ getsək, burada tanrıçılığa rast gələ bilərik. Qafqaz coğrafiyasında, Ön Asiyada zamanında Zərdüştlik, Xristianlıq, Yəhudilik yayılıb. Sadaladıqlarımdan məlum olur ki, müxtəlif vaxtlarda eyni coğrafiyada ayrı-ayrı dinlər aparıcı rol oynayıb, amma bu dəyişkənlikdə həmin xalqlar öz əvvəlki dininə məxsus adətlərini tam itirməyiblər.

Amma bununla belə, hazırda mənsub olduğumuz İslam ən mükəmməl dindir. İslam dünyası böyük bir ərazini əhatə edir. İslam dünyası bütövdür və onu Qurani-Kərim, mənəvi ucalığa səsləyən ideyalar birləşdirir. Bu gün İslam Əməkdaşlıq Təşkilatında birləşən 57 ölkənin ortaq nöqtəsi İslam dəyərləridir".

M.Qurbanlı vurğulayıb ki, amma bunların hər birinin öz ölkəsində dinə münasibəti fərqlidir: "Hər birinin fərqli dövlət-din modeli var. Azərbaycanın dövlət-din modeli başqa bir İslam ölkəsinin dövlət-din modeli ilə eyni deyil, fərqlidir. Amma bizim İslama inancımızda fərq yoxdur. Eyni zamanda, Konstitusiyamızda bizim hansı dinə mənsub olduğumuz qeyd olunmur. Bu, tək bizim ölkəmizdə belə deyil, İslam ölkələrinin bəzilərinin konstitusiyalarında dini mənsubiyyət göstərilmir, qalanlarında isə dini mənsubiyyət yazılıb. Eləsi var, hətta, məzhəb də yazılıb. Bu, o, demək deyil ki, tək İslam dünyasında belədir. Dünyada 100-dən çox ölkənin Konstitusiyasında dini mənsubiyyəti yazılıb. Bu halı xristian ölkələrinə də aid etmək olar. Mən hesab edirəm ki, Konstitusiyamızda dini mənsubiyyətin qeyd olunmaması doğru haldır, biz dünyəvi dövlətik, bütün dinlərin nümayəndələrinə bərabərhüquqlu münasibət bəsləyən ölkəyik".

Məhərrəmliyə, Aşuraya, yəni Həzrət İmam Hüseynin şəhadəti ilə bağlı mərasimə gəldikdə isə M. Qurbanlı bildirib ki, bu, tarixdən gələn, xalqın yaddaşında olan bir məsələdir: "Aşura ilə bağlı tədbirlərlə əlaqədar bizim həm xalqımıza, həm bütövlükdə islami dəyərləri hifz edib qorumaq istəyən hər bir vətəndaşımıza çağırışımız var. Qafqaz Müsəlmanları İdarəsinin bununla bağlı fətvası var. Hər il olduğu kimi, bu il də hesab edirəm ki, minlərlə insan imam Hüseyn əzadarlığında qanvermə aksiyasına qatılacaq və bu qanvermə aksiyası ilə onlar xurafat elementlərinin daşıyıcısı olan özünüdöymə, qançıxarma kimi hərəkətlərdən yayınacaqlar. Çünki bu dinə, Kərbəla şəhidlərinin yad edilməsinə heç bir aidiyyəti olmayan məsələlərdir. Kərbəlada törədilən hadisələrlə əlaqədar özünə xəsarət yetirmək heç də məqbul sayılmır. Bunu bütün din xadimlərimiz, tanınmış alimlərimiz də təsdiqləyir. Əminəm ki, insanlarımız bu cür xurafat elementlərindən kənarda qalmağa çalışacaqlar. Biz hesab edirik ki, bu cür yadetmə mərasimlərində, hüzr mərasimlərində də barış, inam və bir-birinə qarşılıqlı hörmət kimi hissləri yaşatmalıyıq, Qarabağ şəhidlərimizi yad etməliyik, eyni zamanda, xurafatdan uzaq qalmalıyıq. Milli marağımızı, dövlət marağımızı hər şeydən uca tutmalıyıq".

# "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK"

## Şamaxıda

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şamaxı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə avqustun 8-9-da "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.



Dini icma sədrləri, gənclər və digər ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısının müavini Gülnisə Ələkbərova rayonda dini durumun sabit olduğunu bildirib. G.Ələkbərova, eyni zamanda Şamaxıda onlarla məscidin, o cümlədən Şamaxı Cümə məscidi, Dəmirçi məscidi kimi tarixi ibadət yerlərinin fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev xalqımızın mənəvi dəyərlərinin inkişafında əvəzsiz tarixi xidmətlər göstərib. Onun sözlərinə görə, bu mənəvi dəyərlər sırasında dini dözümlülük və multikulturalizm xüsusi yer tutur. Bu gün Azərbaycan dünyada tolerantlıq və multikulturalizm ölkəsi kimi tanınmaqdadır.

Azərbaycanda bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində də mühüm addımlar atıldığını deyən Səyyad Salahlı vurğulayıb ki, bu siyasətin əsası müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən qoyulub və hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Sədrin birinci müavini onu da deyib ki, son illər ərzində respublikamızda 200-dən çox məscid inşa edilib, 90-a yaxın məsciddə isə əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib.

DQİDK sədrinin birinci müavini ölkəmizdə dini maarifləndirmə işinin təşkili və həyata keçirilməsi, həmçinin cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması sahəsində həyata keçirilən tədbirlər barədə də ətraflı məlumat verib. Natiq çıxışında zərərli dini cərəyanların təbliğat metodları və onlara qarşı mübarizə tədbirlərdən danışaraq dini radikalizmlə mübarizədə cəmiyyətin rolunun xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

QMİ-nin Şamaxı və Qobustan rayonları üzrə səlahiyyətli nümayəndəsi Mərəhmət Mustafayev, Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin böyük məsləhətçisi Orxan Maşayev, Yeni Azərbaycan Partiyası Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov və başqaları çıxışlarında dövlətin dinə və dindarlara qayğısından, eyni zamanda respublikamızda həyata keçirilən dini maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışıblar.

## Zaqatalada

Bu qəbildən olan növbəti ikigünlük seminar-müşavirə avqustun 15-16-sı DQİDK və Zaqatala Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə keçirilib.

Dindarlar, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Qafqaz Müsəlmanları İdarəsinin rayon üzrə qazısı Malik Bilalov rayondakı dini durum, dini icmaların fəaliyyəti barədə məlumat verib.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı qeyd edib ki, bütün sahələrdə olduğu kimi din sahəsi də hər zaman ölkə rəhbərliyinin diqqət mərkəzindədir. S.Salahlı vurğulayıb ki, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə mütəmadi olaraq İslam və qeyri-islam dini icmalarına maliyyə yardımı ayrılır: "Bu, dövlət başçısının dinə və dindarlara diqqət və qayğısının bariz nümunəsidir".




İslam dininin sülh və əmin-amanlıq dini olduğunu diqqətə çatdıran Dövlət Komitəsi sədrinin birinci müavini təəssüf hissi ilə qeyd edib ki, Yaxın Şərqdə, o cümlədən dünyanın müxtəlif ölkələrində dini zəmində qanlı münaqişələr baş verir. Səyyad Salahlının sözlərinə görə, həmin münaqişələrin Azərbaycana ayaq açmaması və ölkəmizdə hökm sürən sülh və əmin-amanlığın davamlı olması üçün din sahəsində insanlarımızın maarifləndirilməsinə bu gün həmişəkindən daha çox ehtiyac var. Bu təhdidləri və reallıqları nəzərə alaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət istiqamətinə uyğun olaraq dini etiqad sahəsində maarifləndirmə işi aparmaqdadır. Dövlət Komitəsinin bu sahədəki fəaliyyətinə ölkədə dövlət-din münasibətlərinin və dini etiqad azadlığının yüksək səviyyədə təmin olunması, dini radikalizm meyillərinin qarşısının alınması, o cümlədən milli-mənəvi dəyərlərimizin, ölkədəki zəngin tolerantlıq və multikulturalizm mühitinin qorunub saxlanılması məqsədilə dini maarifləndirmə işinin təşkil olunması daxildir.

Səyyad Salahlı onu da vurğulayıb ki, dini icma sədrləri və nüfuzlu din xadimləri cəmiyyət, xüsusilə gənclər üçün hər zaman şəxsi nümunə göstərməlidirlər. Natiq, həmçinin dini ekstremizm və dini radikalizmlə mübarizədə dini icmaları, din xadimlərini fəal olmağa çağırıb.

Tədbirdə Zaqatala RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Ramin Həsənov, Dövlət Komitəsinin Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri İlqar Vəliyev, Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Saleh Aslanov çıxış edərək bildiriblər ki, ölkə vətəndaşları dini mənsubiyyətindən asılı olmayaraq dövlətin qayğısı və himayəsi altındadır. O da vurğulanıb ki, Prezident İlham Əliyev dini dəyərlərimizə böyük önəm verir.

## Qəbələdə

Analoji mövzuda növbəti ikigünlük seminar-müşavirə avqustun 22-23-ü DQİDK və Qəbələ Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə keçirilib.

Dindarlar, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyəti Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Absalam Hüseynov Azərbaycanda hər zaman bütün dinlərə və fərqli mədəniyyətlərin daşıyıcılarına qayğı ilə yanaşıldığını bildirib.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı nümunəvi dövlət-din münasibətləri, milli-mənəvi dəyərlərimizin qorunması, tolerant və multikultural ənənələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətindən, o cümlədən din xadimlərinin sosial şəbəkələrdən aktiv istifadə etməsinin vacibliyindən danışıb.

Bildirib ki, günümüzdə dövlətimizin din siyasəti Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi demokratik dövlət quruculuğu siyasətinə əsaslanır. Ulu Öndərin siyasi varisi, layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə insan hüquq və azadlıqlarına, xüsusilə vicdan və dini etiqad azadlığının bərqərar olmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına, gənclərin dəyərlərimizə sadiq yetişməsinə böyük önəm verilir.

Ölkəmizdə hökm sürən multikulturalizm və dinlərarası tolerantlıq mühitinə qarşı əsas təhdidlərdən birinin dini radikalizm olduğunu qeyd edən Komitə rəsmisi bunun yaranma səbəblərindən biri kimi İslam dini haqqında məlumatsızlığı, yad dini ideologiyaların yayılması cəhdlərini göstərib. O, dini radikalizm və ekstremizm kimi mənfi halların yayılmasında sosial şəbəkələrin roluna toxunub. Sədrin birinci müavini diqqətə çatdırıb ki, din pərdəsi altında gizlənmiş, İslamı gözdən salan qüvvələrin çirkin əməlləri üçün sosial media imkanlarından çox effektli şəkildə istifadə edirlər.

S.Salahlı qeyd edib ki, insanlar arasında ixtilafa səbəb olacaq çağırışlar edən, məzhəb ayrı seçkiliyi salan, digər dinlərə münasibətlərə ciddi zərbə vuracaq materialları yayan qüvvələrə qarşı din xadimlərinin, ilahiyyatçıların, dini icmaların üzərinə də böyük məsuliyyət düşür. Onlar İslamın gözəlliklərini, insanpərvər dəyərlərini, həmrəyliyə və birliyə çağıran xüsusiyyətlərini insanlara sadəcə məsciddən yox, həm də sosial media vasitəsilə çatdırmaqda aktivlik nümayiş etdirməlidirlər. Sədrin birinci müavini din xadimlərini sosial medianın gücündən və imkanlarından istifadə edərək respublikamızda sabitliyi pozmaq istəyən, yüksək dini ideyalar uğrunda mübarizə pərdəsi altında fəaliyyət göstərən qrupların əsl simasının ifşa edilməsində prinsipiallıq və aktivlik nümayiş etdirməyə çağırıb.

Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili



şöbəsinin əməkdaşı Ramil Baxşəliyev isə vurğulayıb ki, dini müxtəlif siyasi maraqların təmin olunmasında vasitəyə çevirməyə çalışan dairələr var. Belə dairələrin əsas ortaq cəhəti odur ki, cəmiyyətdə dini birləşdirici faktor olmaqdan çıxararaq bölücü funksiya daşımasına nail olsunlar. Onun sözlərinə görə, bunun üçün müxtəlif dinlər, hətta eyni dinin qolları arasında qarşıdurma yaradılmasına çalışırlar, eyni zamanda dini milli kimliyin digər elementlərinə qarşı qoyurlar. Halbuki milli kimliyi əmələ gətirən bu amillər nəinki bir-birini inkar edir, əksinə bir-biri ilə üzvi surətdə bağlıdır. Beləliklə, dinin milli kimliyə qarşı qoyulması cəmiyyətdə həmrəyliyin zəiflədilməsi, onu birləşdirən dəyərlərin aradan qaldırılması, parçalanma və qarşıdurma yaradılması məqsədi daşıyır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şəki bölgəsi üzrə şöbəsinin müdiri Taleh Abdullayev, DQİDK-nın əməkdaşı Tərxan Paşazadə və başqaları çıxışlarında ölkəmizdə heç vaxt dinlərarası, millətlərarası zəmində hər hansı mübahisələrin, çəkişmələrin, digər xoşagəlməz halların olmadığını diqqətə çatdırıblar. Natiqlər, həmçinin ölkəmizdə milli-mənəvi və İslam dəyərlərinin qorunması və təbliği sahəsində görülən işlərdən də bəhs ediblər.

DQİDK-nın sifarişi ilə çəkilmiş "Üfüqdəki gələcək" sənədli filminin də nümayiş olunduğu ikigünlük seminar-müşavirə müzakirələrlə başa çatıb.

## İsmayıllıda

Bu qəbildən olan növbəti ikigünlük seminar-müşavirə avqustun 29-30-u DQİDK və İsmayıllı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə keçirilib.

Dindarlar, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan İsmayıllı RİH başçısının birinci müavini Rövşən Ağayev Azərbaycanda dövlət-din münasi-

davamı səh. 11

# "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK"

əvvəli səh. 10

bətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunmasında Ümummilli Lider Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin xidmətlərini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Həmçinin rayondakı dini durum barədə məlumat verib.

Mövzunun əhəmiyyətindən danışan DQİDK sədrinin birinci müavini Səyyad Salahlı dini radikalizmin mahiyyəti və onunla mübarizə yolları, dünyada baş verən siyasi proseslərin dini radikalizmə təsiri barədə geniş məlumat verib. Dövlətin tarixən ölkəmizdə mövcud olan və keçmişdən bizə miras qalan mütərəqqi dini ənənələrin yaşadılması və inkişafı ilə əlaqədar gördüyü işlərdən bəhs edib.

S.Salahlı bildirib ki, din insanların şüuruna və cəmiyyətə təsir göstərmək üçün güclü vasitədir. Onun cəmiyyət, ümumilikdə bəşəriyyət üçün əhəmiyyətini məkrli qüvvələr də yaxşı başa düşür və bəzən bundan məharətlə istifadə edirlər. Nəticədə insanları birliyə, vəhdətə çağıran dinlər mahiyyətindən uzaqlaşdırılaraq




kimlərinsə əlində radikal ekstremist, xurafat, antimilli formaya salınır. Bu baxımdan milli dövlətimizin ideologiyasının tərkib hissəsi olan dindən dövlətçiliyimizə qarşı istifadənin qarşısının alınmasında din xadimlərinin, dini icma sədrlərinin aktivliyi xüsusi önəm daşıyır, o cümlədən dinlərarası dialoqun və əməkdaşlığın reallaşmasında din xadimlərinin üzərinə daha böyük vəzifə və məsuliyyət düşür. Çünki din xadimləri təkcə özlərinin deyil, eyni zamanda onların arxasınca gedən yüzlərlə, minlərlə, hətta, milyonlarla mömininin mövqeyinə, eləcə də dini dünyagörüşünün formalaşmasına görə ən azı mənəvi məsuliyyət daşıyırlar. Sədrin birinci müavininin sözlərinə görə, geniş təbliğat imkanına, tribunaya, ibadət evlərində söz kürsüsünə malik şəxslər bu imkanlardan maksimum istifadə etməli və minbərin din pərdəsi altında mənfəətpərəst insanların əlinə keçməsinə qətiyyən yol verməməlidirlər.

QMİ-nin İsmayıllı bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Vasif Teymurov çıxışında dövlətin dinə və dindarlara qayğısından bəhs edib.

DQİDK-nın Mərkəzi Aparatının əməkdaşları Tərxan Paşayev və Orxan Maşayev isə çıxışlarında dini radikalizmin və zərərli ideologiyaların yayılmasına qarşı mübarizənin vacibliyinə, eləcə də dini maarifləndirmənin roluna toxunublar.

DQİDK-nın sifarişi ilə çəkilmiş "Üfüqdəki gələcək" sənədli filminin də nümayiş olunduğu ikigünlük seminar-müşavirə müzakirələrlə başa çatıb.

# "DİNİ BAYRAMLAR: TARİX, ƏNƏNƏ VƏ MÜASİRLİK"

Avqustun 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini bayramlar: tarix, ənənə və müasirlik" mövzusunda konfrans keçirilib.

Konfransda çıxış edən Komitə sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulmasından, dini mərasimlərin keçirilməsi üçün lazımi şəraitin yaradılmasından, həmçinin milli-mənəvi irsimizin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi istiqamətində görülən ardıcıl tədbirlərdən söhbət açıb. O, eyni zamanda müxtəlif dini mərasimlərin, müqəddəs bayramların tarixi xüsusiyyətləri, milli aspektləri və müasir dəyərlər sistemindəki yeri barədə konfrans iştirakçılarına ətraflı məlumat verib. S.Salahlı vurğulayıb ki, İslam dünyasının ən müqəddəs bayramlarından hesab olunan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur, İslamda bu bayram xüsusi əhəmiyyət kəsb edir, onun əsasında Allaha sonsuz sevgi, onun qüdrətinə dərin inam və iman işığı durur.

Məruzə ilə çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev dini bayramların tarixindən və əhəmiyyətindən bəhs edib. O bildirib ki, dini bayramlar mövzusu həmişə aktual olub, xüsusilə İslam dini ilə əlaqəli bayramların qeyd edilməsi məsələsində maarifçi yanaşma, dini məqamların doğru şəkildə insanlara çatdırılması olduqca əhəmiyyətlidir. Bayramların tarixi xüsusiyyətlərini, təsnifatını, ölkəmizdə qeyd olunan müxtəlif dinlərə




aid bayramların mahiyyətini diqqətə çatdıran Ceyhun Əliyev vurğulayıb ki, bu bayramlar bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. O bildirib ki, dini bayramlar insanları bir-birilərinə qarşı laqeyd olmamağa, halallığa, paklığa, vəhdətə səsləyir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Əliheydər Zülfüqarov vurğulayıb ki, ənənəvi bayramlardan fərqli olaraq, Azərbaycanda dini bayramlar İslam dini təsəvvürləri ilə əlaqədar təşəkkül tapıb, eləcə də əhatəliliyinə görə bu bayramlar digərlərindən heç də geri qalmır. Azərbaycan müstəqillik qazandıqdan sonra Qurban, Ramazan ümumxalq bayramları sırasına daxil olub, dövlət səviyyəsində qeyd olunmağa başlayıb və həmin günlər qeyri-iş günü elan olunub.

Ə.Zülfüqarov xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olduğunu, bu gün də əsasını Ümummilli Liderimizin qoyduğu nümunəvi dövlət-din siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. O qeyd edib ki, dövlətimizin başçısı Ramazan bayramı münasibətilə təşkil edilən iftar mərasimində iştirak etməsi, dini bayramlar ərəfəsində İslam dininə mənsub xarici ölkə səfirlərini qəbul etməsi, həmçinin İslam dini ilə yanaşı, digər dinlərin nümayəndələrinə məxsus dini bayramlarının təşkilinə və qeyd olunmasına dəstək verməsi dövlətin dini bayramlara verdiyi dəyərin bariz nümunəsidir.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev Qurban Bayramının ən gözəl xüsusiyyətlərindən birinin din, məzhəb ayrı-seçkiliyinə yol verilməməsi olduğunu deyib. Bu bayramda istənilən dindən olan kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin, adi günlərdə yeyə bilmədiyi qurbanlıq ətindən dadsın. Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin əməkdaşı Araz Qurbanov respublikamızda yaşayan müxtəlif dinlərin nümayəndələrinin dini bayramlarını öz ənənələrinə uyğun şəkildə qeyd etmələri üçün yüksək şəraitin yaradıldığını bildirib. O vurğulayıb ki, dini bayramlar həmrəylik nümunəsidir, sosial səviyyəsindən, mədəni, etnik müxtəlifliyindən asılı olmayaraq bütün insanlar bu bayramları vəhdət halında yüksək səviyyədə qeyd edirlər.

# «Məhərrəmliklə bağlı əsas diqqətimiz bu mərasimlərin ölkə üzrə məscidlərimizdə QMİ-nin fətvasına uyğun həyata keçirilməsidir»



Bu sözləri Lent.az saytına müsahibəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov söyləyib.

N.Məmmədov bildirib ki, dövlət-din münasibətləri istiqamətində hökumətin siyasətini həyata keçirən DQİDK-nın istənilən əlamətdar dini təqvimlə bağlı konkret fəaliyyət planı olur. İslamla bağlı ayin və mərasimlərin icrası da onlardan biridir. Məhərrəmliklə bağlı əsas diqqətimiz bu mərasimlərin ölkə üzrə məscidlərimizdə Qafqaz Müsəlmanları İdarəsinin fətvasına uyğun şəkildə həyata keçirilməsidir. Hər il QMİ bu mərasimlərlə bağlı tövsiyələrindən ibarət fətvasını açıqlayır. Fətvada məhərrəmlik mərasimlərinin mahiyyətinə uyğun təşkil edilməsi ilə yanaşı, xurafat elementlərindən uzaq, özünə bu və ya digər şəkildə zərər yetirmək kimi mənfi hallara yol verilmədən keçirilməsi nəzərdə tutulur. Fətvada qeyd olunur ki, qan çıxarmaq, zəncir vurmaq, özünə bu və ya digər şəkildə zərər yetirmək yolverilməzdir.

Şöbə müdiri vurğulayıb ki, tədricən bu səpkili mərasimlərin keçirilməsinin humanizm nöqteyi-nəzərdən müsbətə doğru dəyişməsi baş verir. Məsələn, Şeyx həzrətlərinin təşəbbüsü ilə neçə illərdir ki, qan xəstəliklərindən əziyyət çəkənlər üçün qanvermə aksiyası təşkil olunur. Bu humanist addım öz mahiyyətinə görə əzadarlığın ən optimal variantlarından biridir. Bu baxımdan bizim qarşımızda duran əsas məsələ bütün soydaşlarımızı, vətəndaşlarımızı qanunun tələbləri çərçivəsində Məhərrəmlik mərasimlərini keçirməyə dəvət etməkdir.

# "DİNİ VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK" MÖVZUSUNDA REGİONAL SEMİNAR-MÜŞAVİRƏ KEÇİRİLİB

Avqustun 20-də Astara Rayon Mədəniyyət Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Astara Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Din və ideoloji təhlükəsizlik" mövzusunda seminar-müşavirə keçirilib.

Seminar-müşavirədə DQİDK və Astara RİH-in məsul işçiləri, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı, Respublika Prokurorluğu, Daxili İşlər Nazirliyi (DİN), Dövlət Təhlükəsizliyi Xidmətinin vəzifəli şəxsləri, Astara, Lənkəran, Masallı və Lerik rayonlarının icra və hüquq-mühafizə orqanlarının rəsmiləri, dini icmaların rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.



Tədbir iştirakçıları əvvəlcə Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə çəkilmiş "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filminə baxıblar.

Müşavirəni giriş sözü ilə açan Astara RİH başçısının birinci müavini Allahverən Mahmudov əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərinin bu gün ölkəmizin inkişafına böyük töhfə verdiyini vurğulayıb və Azərbaycan dindarlarının daim dövlətçiliyimizə sadiq olduqlarını deyib.

Seminar-müşavirədə çıxış edən Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Azərbaycandakı mümunəvi dövlət-din münasibətləri, xalqımızın multikultural və tolerant dəyərləri, o cümlədən milli-mənəvi dəyərlərimizin təşviqi, vətəndaşlarımızın yad dini ideologiyaların təsirlərindən qorunmalarının vacibliyindən danışıb.

Komitə rəsmisi bildirib ki, dinin terrorçu və ekstremist qruplar tərəfindən istismarı dövlət təhlükəsizliyi üçün böyük təhdid yaradır. Bu baxımdan dinin insan mənəviyyatında, əxlaqında və ictimai şüurunda oynadığı mühüm rolun və təsirin doğru məcraya yönləndirilməsi mühüm məsələdir.

Sədr müavinin sözlərinə görə, ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət ölkədəki dini duruma və vətəndaşların təhlükəsizliyinə görə bilavasitə məsuliyyət daşıyır. Odur ki, ölkəmizin təhlükəsizliyinə mümkün təhdidlərin qarşısının alınmasında ən mühüm vasitə vətənpərvərlik, dövlətçilik amallarının, milli-mənəvi irsin, adət-ənənələrin aşılanması, cəmiyyətin, xüsusilə gənc nəslin dini dözümlülük və tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsi ruhunda tərbiyə olunmasıdır.

Bu istiqamətləri əhatə edən və tədbirdə nümayiş olunan "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" adlı sənədli filmin əhəmiyyətinə toxunan sədr müavini Ulu Öndərin milli-mənəvi dəyərlərin dirçəldilməsi və qorunub saxlanılması istiqamətindəki əzmkar əməllərindən, həyata keçirdiyi mühüm tədbirlərdən danışıb.

Bildirib ki, hakimiyyətə gəlişi ilə ölkəmizdə milli-mənəvi dəyərlərə, dinə münasibəti kökündən dəyişən və yeni ideologiya formalaşdıran Ümummilli Liderin çoxşaxəli irsi, tövsiyələri milli-mənəvi dəyərlərimizin qorunması üçün hər bir gəncin bəhrələnməli olduğu zəngin məktəbdir.

Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən din siyasəti çərçivəsində dini radikalizm və beynəlxalq terrorizmin təzahürlərinin qarşısının alınmasında, o cümlədən beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi, islamafob meyillərə qarşı mübarizədə dinlərarası əməkdaşlığın gücləndirilməsi üzrə fikir mübadiləsi üçün uğurlu platforma yaradılıb.

Ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyeva da xalqımızın mənəvi dəyərlərinin qorunması və təbliği, mədəniyyətlərarası dialoqun təşkili və təşviqi sahəsindəki çoxşaxəli və böyük əhəmiyyət kəsb edən fəaliyyəti ilə dövlət başçısına dəstək olur.

DİN nümayəndəsi Oqtay Tağıyev çıxışında bildirib ki, din insanlara gözəl əxlaq sahibi olmağı, yaxşılıq etməyi, pislikdən çəkinməyi öyrədir. Din və siyasətin birləşməsi ilk növbədə dinin siyasi məqsədlər üçün vasitəyə çevrilməsinə gətirib çıxarır. O.Tağıyev DİN tərəfindən qeyri-qanuni dini fəaliyyətin, radikal, separatçı və ekstremist yönümlü hərəkətlərin qarşısının alınması, "Dini etiqad azadlığı haqqında" və "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə riayət edilməsi ilə əlaqədar konkret tədbirlərin həyata keçirildiyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin Astara rayonu üzrə səlahiyyətli nümayəndəsi İlqar Həsənli çıxışında qeyd edib ki, ölkəmizdə tolerant, multikultural dəyərlər, həmçinin dinlərarası və məzhəblərarası həmrəylik münasibətləri hökm sürür.

Seminar-müşavirəyə yekun vuran DQİDK-nın sədr müavini Səyavuş Heydərov sentyabrın 1-də Müsəlman dünyasında Məhərrəmlik ayının başlanması ilə əlaqədar məscidlərdə və digər ibadət yerlərində dini mərasimlərin icrası zamanı Qafqaz Müsəlmanları İdarəsinin verdiyi Fətvanın tələblərinə ciddi riayət olunmasının vacibliyini diqqətə çatdırıb.

# "MƏZHƏBÇİLİK - DİNİ TƏHLÜKƏSİZLİYƏ TƏHDİD KİMİ"

20-21 avqust tarixlərində Dini Qurumlarla İş üzrə Komitəsi (DQİDK), Lənkəran Şəhər və Masallı Rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə "Məzhəbçilik-dini təhlükəsizliyə təhdid kimi" mövzusunda seminar-müşavirələr keçirilib.

Tədbirlərdə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun nümayəndələri Oqtay Tağıyev və Bəhruz Kərimov, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bölgə qazıları Hacı Qəni Axundzadə və Mirqiyas Təhməzov, dini icma sədrləri, eləcə də ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Çıxışlarda nümunəvi dövlət-din münasibətləri, dini sahəyə diqqət və qayğı, dini radikalizmlə mübarizə, milli təhlükəsizliyə qarşı təhdidlər, müvafiq sahədə qanunvericiliyin təkmilləşdirilməsi mövzularında fikir mübadiləsi aparılıb.

Qeyd olunub ki, bu gün bəzi qüvvələr İslam dininə mənsub olan hansısa bir ölkəyə təsir göstərmək üçün məzhəblər arasında qarşıdurma yaratmağa çalışırlar. Yaxın Şərqdə uzun müddət məhz məzhəbçilik üzərindən aparılan düşmənçilik təbliğatı nəticəsində minlərlə günahsız insan öldürülüb, işgəncəyə məruz qalıb. Din və məzhəb üzərindən nifrət yayılması müsəlmanlar arasında bölünməni daha da dərinləşdirib, düşmənçiliyə səbəb olub.

Məzhəbçiliyə qarşı maarifçilik prinsipindən çıxış etməyin zəruriliyinin də vurğulandığı tədbirlərdə respublikamızda 2016-cı ili "Multikulturalizm İli", 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməklə Prezident İlham Əliyevin dünyada dini məzhəbçilik zəminində baş verən münaqişələrin həlli üzrə yol xəritəsini göstərməsi diqqətə çatdırılıb. Bildirilib ki, dini zəmində ixtilafların süni şəkildə qabardıldığı bir zamanda, Azərbaycanda Vəhdət namazının qılınması ilə bütün dünya üçün olduqca gözəl örnəyin əsası qoyulub. Ölkədə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi Azərbaycanı gücləndirən amillərdən biridir. Xalqımızın çoxəsrlik tolerant və mehriban birgəyaşayış ənənələri dünya sivilizasiyaları arasında münasibətlərin tənzimlənməsində və inkişafında nümunə kimi göstərilir və bu, dünya birliyi tərəfindən etiraf olunan həqiqətdir.

Ulu Öndərin milli-mənəvi dəyərlərin dirçəldilməsi və qorunub-saxlanılması istiqamətindəki əzmkar fəaliyyətindən, həyata keçirdiyi mühüm tədbirlərdən danışılan seminar-müşavirələrdə "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" adlı sənədli filmin nümayişi olub. Bildirilib ki, filmdə gənclərə vətənpərvərlik, dövlətçilik amallarının, milli-mənəvi irsin, adət-ənənələrin aşılanması, cəmiyyətin, xüsusilə gənc nəslin dini dözümlülük və tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsi ruhunda tərbiyə olunmasının önəmi barədə dahi şəxsiyyətin dəyərli tövsiyələri nəzərə çatdırılır, dəyərlərimizə sadiqlik və onun qorunmasının vacibliyi aşılanır.

Dini radikalizmlə mübarizədə fəallığa, eyni zamanda din pərdəsi adı altında səsləndirilən ifadələr və çağırışlara qarşı diqqətli olmağın vacibliyinə toxunulan tədbirlərin sonunda vətəndaşlara Məhərrəm ayı ərzində dini ayinlərin icrası zamanı QMİ-nin verdiyi fətvanın tələblərinə ciddi riayət etmələrinin vacibliyi diqqətə çatdırılıb.

# «DİNİ MƏRASİMLƏR: ƏNƏNƏVİLİK VƏ MÜASİRLİK»



Avqustun 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Suraxanı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib.

Rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, RİH nümayəndələri, bələdiyyə sədrləri, din xadimləri, dindarlar və gənclərin iştirak etdiyi tədbirdə əvvəlcə Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə çəkilmiş "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filmi nümayiş olunub.

Suraxanı RİH başçısı İlqar Abbasov çıxış edərək mövzunun aktuallığından danışıb. Dini mühitdə cərəyan edən mənfi tendensiyaların qarşısının alınması, radikalizmlə mübarizənin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən tədbirlərin önəminə toxunan İ.Abbasov rayondakı dini durum barədə məlumat verib. Bildirib ki, Suraxanı ərazisində 12 məscid və 1 ziyarətgah fəaliyyət göstərir.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, bu cür maarifləndirmə tədbirlərinin keçirilməsində əsas məqsəd cəmiyyətin dinlə bağlı düzgün məlumatlandırılmasıdır. O, DQİDK-nın digər müvafiq qurumlarla birgə bu sahədə mütəmadi işlər həyata keçirdiyini diqqətə çatdırıb.

Ümummilli Liderimiz Heydər Əliyevin layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan mədəniyyətlərarası və dinlərarası dialoq məkanına çevrildiyini söyləyən Səyavuş Heydərov dünyada gedən proseslərə nəzərə salaraq deyib ki, bəzi qüvvələr öz geosiyasi maraqlarını həyata keçirmək üçün din amilindən istifadə edirlər. Son dövrlərdə dünyada, o cümlədən müsəlman ölkələrində baş verən məzhəblərarası qarşıdurmalarda və müharibələrdə din amili daha qabarıq şəkildə özünü büruzə verir.

Səyavuş Heydərov sentyabrın 1-də Müsəlman dünyasında Məhərrəmlik ayının başlanması ilə əlaqədar məscidlərdə və digər ibadət yerlərində dini mərasimlərin icrası zamanı Qafqaz Müsəlmanları İdarəsinin verdiyi fətvanın tələblərinə ciddi riayət olunmasının vacibliyini diqqətə çatdıraraq vurğulayıb ki, Aşura mərasimləri milli adət-ənənələrimizə uyğun formada keçirilməlidir.

Din xadimləri çıxışlarında bu cür tədbirlərə görə təşəkkürlərini bildiriblər və təkliflərini səsləndiriblər.

* * *

Analoji tədbir avqustun 29-da DQİDK və Nəsimi RİH-in birgə təşkilatçılığı ilə keçirilib.

"Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filminin nümayişindən sonra çıxış edən RİH başçısının birinci müavini Gülarə Verdiyeva rayondakı dini durum barədə məlumat verib və qeyd edib ki, Nəsimi rayonunda 3 məscid fəaliyyət göstərir.

DQİDK tərəfindən maarifləndirmə məqsədilə paytaxtda və bölgələrdə ardıcıl olaraq dəyirmi masalar və konfransların keçirildiyini qeyd edən Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov vurğulayıb ki, radikal dini cərəyanların yayılması cəhdlərinin qarşısının alınması üçün cəmiyyətdə, xüsusilə gənclər arasında milli-mənəvi, o cümlədən dini dəyərlərin təbliği düzgün aparılmalıdır.

Dövlətin dinə qayğısından da bəhs edən Səyavuş Heydərov deyib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan mənəvi dəyərlərimizə dövlət qayğısı siyasəti bu gün ölkə başçımız cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Din xadimlərinə maddi dəstəyin verilməsi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən ibadət yerlərinin tikintisi və əsaslı təmiri ölkə rəhbərliyinin dinə və dindarlara qayğısının bariz nümunəsidir", - deyə sədr müavini əlavə edib.

Natiq xurafat, dini ekstremizm və radikalizmlə mübarizədə dini icmaları, din xadimlərini fəal olmağa çağırıb və eyni zamanda qarşıdan gələn Məhərrəm ayı ilə əlaqədar tövsiyələrini verib.

# "HEYDƏR ƏLİYEV: DƏYƏRLƏRİMİZİN XİLASKARI"



Göygöl rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" mövzusunda tədbir keçirilib.

Göygöl RİH-in nümayəndələri, bələdiyyə sədrləri, hüquq mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısı Arif Seyidov mövzunun əhəmiyyətindən danışıb. Bildirib ki, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin təbliğində və ölkə gənclərinin bu ruhda tərbiyə olunmasında Ulu Öndər Heydər Əliyevin xidmətləri danılmazdır.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov çıxışında söyləyib ki, hər bir xalqın milli şüurunun formalaşmasında, mədəniyyətinin inkişafında milli-mənəvi dəyərlər mühüm rol oynayır. Çünki hər bir xalqın milli-mənəvi dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir. Sədr müavini deyib ki, Ümummilli Liderimiz Heydər Əliyevin xalqımızın mənəvi dəyərlərinin qorunmasında, milli mədəniyyətimizin inkişafında, xalqın adət-ənənələrinin zənginləşdirilməsində müstəsna xidmətləri olmuşdur. Vurğulayıb ki, müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan Ulu Öndər Azərbaycançılıq ideologiyasının əsasını qoyaraq milli-mənəvi dəyərlər sistemimizi daha da gücləndirmişdir. Milli-mənəvi dəyərlərimizə qayıdışın və milli oyanışın xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu məsələni diqqət mərkəzində saxlayan dahi şəxsiyyət bu sahədə inqilabi addımların atılmasına zəmin yaratmışdır. Ulu Öndər milli-mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu hesab edirdi.

Dövlət Komitəsinin sədr müavini, eyni zamanda bildirib ki, bu gün Heydər Əliyevin yaratdığı müasir Azərbaycan Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. Ulu Öndərin mənəvi dəyərlərimizə diqqət və qayğısını uğurla davam etdirən dövlət başçımızın müvafiq fərman və sərəncamları ilə DQİDK-nın tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutu yaradılıb.

Tədbirdə çıxış edən digər natiqlər də ölkə rəhbərliyinin milli-mənəvi dəyərlərimizə, o cümlədən dinə və dindarlara diqqət və qayğısından danışıblar.

* * *

Analoji tədbir Müdafiə Nazirliyi və Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Gəncə şəhərində yerləşən N saylı Hərbi hissədə keçirilib. Tədbirdə hərbi hissənin zabit və gizir heyəti iştirak ediblər.

"Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filmi nümayişindən sonra çıxış edən DQİDK sədrinin müavini Səyavuş Heydərov milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlər barədə iştirakçılara geniş məlumat verib, gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsinin vacibliyinə toxunub.

Nümayiş olunan sənədli film barədə də danışan sədr müavini deyib ki, filmdə Ulu Öndərin Azərbaycanın milli-mənəvi dəyərlərinə verdiyi önəmdən, bu sahədə göstərdiyi misilsiz xidmətlərdən bəhs olunur. Sənədli filmdə keçmiş sovet dövründə və müstəqillik illərində milli və dini dəyərlərimizin, eləcə də adət-ənənələrimizin qorunması, xalq arasında təbliği və təşviqi istiqamətində görülən işlər xronoloji ardıcıllıqla təqdim olunur.



# "DİNİ QURUMLAR VƏ QHT-LƏR: BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ VƏ ƏHƏMİYYƏTİ"



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının birgə təşkilatçılığı ilə avqust ayının 29-da "Dini qurumlar və QHT-lər: birgə fəaliyyətin təşkili və əhəmiyyəti" mövzusunda konfrans keçirilib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov Azərbaycandakı nümunəvi dövlət-din münasibətlərinin formalaşması, dini radikalizmlə mübarizə və dini maarifləndirmə sahəsində QHT-lərlə dini qurumların birgə fəaliyyətinin önəmi barədə danışıb.

Din sahəsində qarşıda duran məqsədlərə, xüsusilə dini-ideoloji, milli və ictimai təhlükəsizlik baxımından hədəflərə toxunan G. İsmayılov bildirib ki, DQİDK-nın bu istiqamətlərdə müvafiq dövlət qurumları, o cümlədən Qafqaz Müsəlmanları İdarəsi, qeyri-hökumət təşkilatları ilə yaxından əməkdaşlıq etməsi xüsusi əhəmiyyət daşıyır.

Sədr müavini vurğulayıb ki, dini sahədə radikalizmlə yanaşı, din pərdəsi adı altında milli kimliklə dini kimlik anlayışının, azərbaycançılıq ideologiyası ilə İslamın qarşı-qarşıya qoyulması, dünyəvilik prinsiplərinə zidd təbliğatın aparılması, qadın hüquqlarına, Azərbaycanın ənənəvi ailə institutuna, dünyəvi təhsil sisteminə qarşı təhdid cəhdləri var. Bu kimi təhdidlərə qarşı dini maarifləndirmənin, xalqımızın tolerant, multikultural və mənəvi dəyərlərinin təbliğ və təşviq edilməsi olduqca vacibdir. Bu istiqamətlərdə, xüsusilə Prezident İlham Əliyevin elan etdiyi "Multikulturalizm İli" və "İslam Həmrəyliyi İli"ndə qeyri-hökumət təşkilatlarının kifayət qədər aktivlik nümayiş etdirdiyini qeyd edən G.İsmayılov vətəndaş cəmiyyətləri ilə əməkdaşlığın genişləndirilməsi üçün geniş perspektivlərin olduğunu deyib.

QHT-lərə Dövlət Dəstəyi Şurası katibliyinin icraçı direktoru Fərasət Qurbanov Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizdə demokratik proseslərin inkişafında QHT-lərin rolunun daha da genişləndirilməsi üçün hərtərəfli tədbirlərin həyata keçirildiyini bildirib. Mövzunun əhəmiyyətinə toxunan F.Qurbanov təmsil etdiyi qurumla DQİDK arasında birgə fəaliyyət haqqında imzalanan protokola əsasən icra edilən layihələrin dini radikalizmə qarşı mübarizəyə, milli-mənəvi dəyərlərin təbliğinə öz töhfəsini verdiyini vurğulayıb.

DQİDK yanında İctimai Şuranın sədri, Konstitusiya Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev çıxışı zamanı qeyd edib ki, QHT-lər hər zaman dövlətin maraqlarının qorunması, ictimai əhəmiyyətli məsələlərin həllində fəallıq nümayiş etdirirlər. Dini icmaların da vətəndaş cəmiyyətinin tərkib hissəsi olduğunu vurğulayan Ə.Nuriyev sosial şəbəkələrin ictimai rəyə hakim kəsildiyi bir zamanda dini bilgilərə sahib şəxslərin, xüsusi fəallıq göstərməsinin vacibliyindən danışıb. Bu istiqamətdə Azərbaycan İlahiyyat İnstitutunun hazırladığı kadrların və QHT-lərin potensialından istifadənin önəmli olduğunu qeyd edib.

"Din və Demokratiya Mərkəzi" ictimai birliyinin sədri Nəriman Qasımoğlu bildirib ki, Azərbaycanda nümunəvi dövlət-din münasibətləri, tolerantlıq mühiti mövcuddur. Bu modeli və sabitliyi qorumaq üçün maarifləndirici tədbirlər davam etdirilməlidir. O, eyni zamanda dini icmaların ictimai cəhətdən faydalı layihələrə, kampaniyalara cəlb edilməsinin zəruriliyindən bəhs edib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Rəşad İlyasov, Azərbaycan Milli QHT Forumunun prezidenti Rauf Zeyni, "Müasir İnkişaf" ictimai birliyinin sədri Mübariz Göyüşlü çıxışlarında cəmiyyətdə radikallığa şərait yaradan halların aradan qaldırılması istiqamətində müvafiq qurumlar arasında koordinasiya şurasının yaradılması və bu prosesə internet medianın cəlb edilməsi, eləcə də layihələrin daha uzun müddətli olması barədə fikirlər səsləndiriblər.

Müzakirələrlə davam edən konfrans zamanı dini qurumların vətəndaş cəmiyyəti institutları ilə birgə müxtəlif layihələrin reallaşdırmasının vacibliyinə toxunulub, faydalı təkliflər irəli sürülüb.

# QISA-QISA

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi və milli-mənəvi dəyərlərin təbliği istiqamətində maarifləndirmə işini davam etdirir. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən tədbirlər DQİDK-nın təşkilatçılığı ilə, həmçinin Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən olan tədbirlər:***

**2 avqust** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Ağstafa Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "İşıqlı gələcək naminə narkomaniyaya "yox" deyək" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayonu Varxankənd kənd məscidi dini icmasında "Milli-mənəvi və dini dəyərlərimizi qoruyaq" mövzusunda;

**6 avqust** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Qazax RİH-in birgə təşkilatçılığı ilə "İşıqlı gələcək naminə narkomaniyaya "yox" deyək" mövzusunda; DQİDK və Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin birgə Tədbirlər Planına uyğun olaraq Şəki Penitensiar Müəssisəsində "Tolerant Azərbaycanda birgəyaşayış ənənələri" mövzusunda; DQİDK və Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin birgə Tədbirlər Planına uyğun olaraq 2 və 9 saylı cəzaçəkmə müəssisələrində "Radikal dini qrupların psixoloji təsir metodları" mövzusunda;

**7 avqust** – DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Sabunçu RİH-in birgə təşkilatçılığı ilə "Dini maarifləndirmə: perspektivlər" mövzusunda; DQİDK və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən birgə imzalanan "Tədbirlər Planına" əsasən DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan rayon "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Dini radikalizmə və ekstremizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda;

**8 avqust** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Tovuz RİH-in birgə təşkilatçılığı ilə "İşıqlı gələcək naminə narkomaniyaya "yox" deyək" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimizin təbliğində dini icmaların rolu" mövzusunda;

**15 avqust** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, Balakən rayon Gənclər və İdman İdarəsi və Balakən Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və narkomaniya ilə mübarizə yolları" mövzusunda;

**19 avqust** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayon məscidi dini icmasında "Milli-mənəvi dəyərlərimizdə vəhdət prinsipi" mövzusunda;

**20 avqust** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı RİH-in birgə təşkilatçılığı ilə Saatlı rayonu Sarıcalar kənd məscidi dini icmasında Məhərrəmlik mərasimlərinin təşkili ilə bağlı; DQİDK və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən birgə imzalanan "Tədbirlər Planına" əsasən DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin və Beyləqan rayon "N" saylı hərbi hissənin birgə təşkilatçılığı il\ "Dini radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları" mövzusunda; DQİDK və Müdafiə Nazirliyinin 2019-cu il üçün birgə fəaliyyət planına əsasən Qaradağ rayonu Səngəçal qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə "Şəhidlik milli-mənəvi dəyərlərimizin ayrılmaz tərkib hissəsi kimi" mövzusunda;

**21 avqust** – DQİDK və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən birgə imzalanan "Tədbirlər Planına" əsasən DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan rayon "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "N" saylı hərbi hissədə;

**22 avqust** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının Yevlax rayon təşkilatının inzibati binasında "Sülh aylığı" çərçivəsində "İnsan hüquq və azadlıqlarının yaratdığı məsuliyyət" mövzusunda;

**26 avqust** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı rayon Cəfər Cabbarlı adına Mərkəzi Kitabxananın birgə təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində "İnsan hüquq və azadlıqlarının yaratdığı məsuliyyət" mövzusunda;

**27 avqust** – DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Xəzər RİH-in birgə təşkilatçılığı ilə Mərdəkan qəsəbəsi Heydər Cümə məscidində "Dini mərasimlər, ənənəvilik və müasirlik" mövzusunda;

**28 avqust** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran ŞİH və QMİ-nin birgə təşkilatçılığı ilə Məhərrəmlik (Aşura) mərasimlərinə həsr edilmiş; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzi və Lənkəran Şəhər Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin (ŞTŞ) birgə təşkilatçılığı ilə şəhər 7 saylı tam orta məktəbində;

**29 avqust** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və QMİ-nin Kürdəmir rayonu üzrə səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı RİH və QMİ-nin rayon nümayəndəliyinin birgə təşkilatçılığı ilə Məhərrəm ayının başlaması ilə əlaqədar; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində "İnsan hüquq və azadlıqlarının ortaya çıxardığı məsuliyyət" mövzusunda; DQİDK-nın təşkilatçılığı ilə Daxili Qoşunların Qubada yerləşən N saylı hərbi hissəsində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhlükə kimi" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsi, Lənkəran şəhər Gənclər və İdman İdarəsi və İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzinin birgə təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində baş tutub.

Tədbirlərdə Məhərrəm ayı ilə bağlı tövsiyələr verilib. Dini radikalizm, ekstremizm kimi məsələlərə toxunulub, çıxış edən natiqlər gənclərin bu yollardan uzaq durmalı olduqlarını vurğulayıblar. Qeyd olunub ki, gənclərin belə radikal qrupların təsirinə düşməməsi üçün mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilir. Həmçinin bildirilib ki, milli-mənəvi, tolerant və multikultural dəyərlərimizin qorunması istiqamətində dövlət tərəfindən mühüm addımlar atılmaqdadır. Çıxışlarda vurğulanıb ki, məhz görülən bu işlər nəticəsində gənc nəsildə Vətənə məhəbbət hissi daha da artmaqla yanaşı, qeyri-ənənəvi dini cərəyanlara maraq azalıb. Eyni zamanda, tədbirlərdə gənclərin narkomaniya, erkən nikah kimi zərərli meyillərdən uzaq tutulması və bu sahədə qarşıda duran vəzifələrdən danışılıb.

## «Dini maarifçiliyin təşkilində qadınların yeri və rolu»

Avqustun 6-7-də Lerik şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Lerik Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini maarifçiliyin təşkilində qadınların yeri və rolu" mövzusunda regional konfrans keçirilib.

Konfransda Lerik RİH və DQİDK-nın rəsmi nümayəndələri, eləcə də idarə, təşkilatlarda, təhsil, səhiyyə və mədəniyyət müəssisələrində çalışan qadınlar və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Lerik RİH başçısının müavini Arzu Vəliməmmədova mövzunun aktuallığından danışaraq ölkəmizin nümunəvi dövlət-din münasibətlərinə toxunub. Qeyd edib ki, cəmiyyətimizin bütün sahələrində yüksək səviyyədə təmsil olunan qadınlar dini maarifləndirmə işinə də öz dəyərli töhfələrini verirlər.

Daha sonra DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova "Dini maarifçiliyin təşkilində qadınlar", İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva "Erkən nikah və onun fəsadları", DQİDK-nın əməkdaşı Aysel Abdullayeva isə "Xurafat: necə və nə etməli" mövzusunda məruzələr ilə çıxış ediblər.

Maraqla qarşılanan məruzələrdə radikalizmin meydana çıxma səbəblərinin siyasi, hüquqi, iqtisadi, dini, mədəni və fəlsəfi təzahürlərindən danışılıb. Bildirilib ki, müasir dövrdə dövlətin, dini icmaların, eləcə də cəmiyyətin hər bir fərdinin başlıca vəzifələrindən biri insanlararası münasibətlərdə qarşılıqlı anlayışa nail olunmasıdır. Qeyd edilib ki, dini radikalizmə qarşı mübarizədə və maarifləndirmədə qadınların xüsusi rolu vardır. Buna görə də cəmiyyətin sağlam gələcəyi hər bir qadının təhsilli olması, öz hüquqlarını bilməsi, düzgün dini bilgilərə malik olması, milli-mənəvi dəyərlərimizə bağlılığından asılıdır.

Tədbirdə həmçinin erkən nikahla bağlı ölkə qanunvericiliyində təsbit olunan hüquqi prosedurlar, problemin yaranmasının səbəbləri, aparılan araşdırmalar və statistik göstəricilər haqqında məlumat verilib. Eyni zamanda xurafat və onun törətdiyi fəsadlara toxunulub.

İkigünlük regional konfrans müzakirələrlə öz işini yekunlaşdırıb.

## «Dini radikalizmlə mübarizə: necə və nə etməli»




26-27 avqust tarixlərində Quba rayonu Xucbala kəndində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Quba Rayon İcra Hakimiyyətinin (RİH) təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizə: necə və nə etməli" mövzusunda seminar-treninq keçirilib.

Tədbirdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə, Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, Quba RİH başçısının Xucbala kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Piroğlan Abdullayev, din xadimləri və gənclər iştirak ediblər.

İkigünlük seminar-treninqdə dini radikalizm və onun mahiyyəti, dini radikalizmdən qorunmaq yolları barədə məruzələr dinlənilib. Bildirilib ki, dindarlar və din xadimləri, dini icmalar radikal və qeyri-ənənəvi təriqətlərin qarşısının alınmasında yaxından iştirak etməlidir.

Tədbir müzakirələr əsasında davam etdirilib, iştirakçıların sualları cavablandırılıb və din xadimlərinin fikirləri dinlənilib.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**Dövlət qeydiyyatına alınaraq Qeyri-kommersiya dini qurumlarının dövlət reyestrinə (Dini qurumların dövlət reyestri) daxil edilmiş dini qurumlar**

**"Bakı şəhəri "Şərqdə Ulduz" Xristian" dini icması**

Qeydiyyat tarixi: 11 iyul 2019-cu il
Qeydiyyat №-si: 100119B-921
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Nizami rayonu, Şərifli küçəsi, ev 9/31
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Roman Valentinoviç Jmurov

**"Bakı şəhəri "Yevangelist Xristian Baptistlərin Kilsəsi" dini icması**

Qeydiyyat tarixi: 11 iyul 2019-cu il
Qeydiyyat №-si: 100119B-922
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Nərimanov rayonu, 1-ci Cıdır döngəsi, ev 13
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: İlya Tixonoviç Zençenko

**Qeyri-kommersiya dini qurumlarının dövlət reyestində (Dini qurumların dövlət reyestri) edilmiş dəyişikliklər**

**"Zərdab rayonu Dəkkəoba kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 12 noyabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 17

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kərimov Nəsib Xasay oğlu, Eyvazov Rüstəm Ədil oğlu, Əsədov Balaqardaş Atdıxan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Kərimov Saqi Həsən oğlu, Əhmədov Ceyhun Fazəddin oğlu, Əsədov Pərviz Balaqardaş oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Kərimov Nəsib Xasay oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Məmmədov Adil Məhəmməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 06 avqust 2019-cu il

**"Masallı rayonu Köçəkli kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 14 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 164

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İsmayılov Aydın Kamran oğlu, Abbasov Yasər Əhəd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Xəlilov Həsrət Abuzər oğlu, Hüseynov Mirkamil Mirtalıb oğlu, Mehtiyeva Mehrac Xanverdi qızı, Hüseynov Mirtalıb Şahverən oğlu, Mehtiyev Mehti Xıdır oğlu, Orucov Səməd Xəmməd oğlu, Aslanov Eminağa İsmət oğlu, Dadaşova Ağanisə Əli qızı, Xəlilova Güldanə Fətulla qızı, Mirzəyeva Pərvanə Əlişan qızı, Ağamirzəzadə Camil Əfrahim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 06 avqust 2019-cu il

**"Göyçay rayonu Yeniarx kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 02 aprel 2014-cü il
Qeydiyyat №-si: 100114A1 – 569

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İsmayılov Qafil Paşa oğlu, Hacıyev Əziz Şəkərəli oğlu, Məmmədov Məhəmməd Firudin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məmmədova Yeganə Ağalar qızı, Bədəlov İlkin Gülhəsən oğlu, Allahverdiyeva Hicran Bilal qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 06 avqust 2019-cu il

**"Masallı rayonu Aşurlu kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 28 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 148

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Səmədov Eldar Vəli oğlu, Həşimov Mirvəli Əziz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Quliyev Rahim Hacıağa oğlu, Eyvazov Fərrux Arif oğlu, Məcidov Əlifətda Hacıağa oğlu, Bağışov Qabil Habil oğlu, Nağıyev Mirtaleh Mirşam oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 07 avqust 2019-cu il

**"Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icması**

Qeydiyyat tarixi: 13 noyabr 2015-ci il
Qeydiyyat №-si: 100115B – 611

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həmidova Tahirə Sarı qızı dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Məmmədov Yahya Nazim oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Sadıqov Samir Sərhad oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 20 avqust 2019-cu il

## E L A N

11.12.2002-ci ildə 146 nömrəli şəhadətnamə ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış "Mingəçevir şəhəri, Mingəçevir kənd "Şeyx Əbdül" ziyarətgahı"nın təsisçilərinin 28 avqust 2019-cu il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin ziyarətgahın ləğvi barədə qərar qəbul edilmişdir.

11.12.2002-ci ildə 146 nömrəli şəhadətnamə ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış "Mingəçevir şəhəri, Mingəçevir kənd "Şeyx Əbdül" ziyarətgahı"na məxsus şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

31.07.2007-ci ildə 1307Ağ1- 404 nömrəli şəhadətnamə ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış "Ağdaş şəhəri "Hacı İsmayıl" məscidi" dini icmasının təsisçilərinin 28 avqust 2019-cu il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

31.07.2007-ci ildə 1307Ağ1- 404 nömrəli şəhadətnamə ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış "Ağdaş şəhəri "Hacı İsmayıl" məscidi" dini icmasına məxsus şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

CƏMİYYƏT və DİN

№ 08 (337) / AVQUST 2019-cu il

## NASA YENİ PLANET KƏŞF EDİB

ABŞ-ın Aeronavtika və Kosmik Tədqiqatlar Milli Agentliyinin (NASA) mütəxəssisləri Yer kürəsi ölçüsündə və atmosferi olmayan qeyri-adi planet kəşf ediblər.

LHS 3844b adlandırılan planet Yerdən 48,6 işıq ili uzaqlıqda yerləşir və "qırmızı cırtdan" və ya M spektral sinfə məxsus olan ulduzun ətrafında fırlanır. Onun radiusu bizim planetin 1,3 hissəsi qədərdir və ulduzun ətrafında tam olaraq cəmi 11 saat ərzində fırlanır.

Astronomlar bildirirlər ki, "qırmızı cırtdana" qədər olan məsafə qısa olduğundan, LHS 3844b planeti həmişə ulduza tərəf bir yönü ilə baxır. Məhz bu amil planetin atmosferinin olmadığı qənaətini hasil etməyə imkan verir. Planetin "gündüz" hissəsi 770 dərəcə Selsiyədək qızır, "gecə" tərəfi isə bir az sərin olur. Temperaturun bu qədər yüksək olması da planetin atmosfersizliyi ilə əlaqədardır. Onun hər iki tərəfindəki isti və sərin hava arasında fərq o dərəcədə böyükdür ki, astronomların sonuncu ehtimalı tamamilə təsdiqlənir.

Tədqiqatın müəllifi Lora Kraydberq bildirib ki, yeni planetdə temperatur ən yüksək həddi belə keçib. Onun sözlərinə görə, LHS 3844b daha çox atmosferi olmayan nəhəng daşı xatırladır.

Mütəxəssislər qeyd ediblər ki, bu planet səthləri kraterlər və bərkləşmiş lavalarla örtülmüş Ay və Merkuriyə daha çox bənzəyir.



## AVTOMOBİLLƏRİN OLMADIĞI KURORT ŞƏHƏRİ

Almaniyanın Şimal dənizi akvatoriyasında bu ölkənin tərkibinə daxil olan 6 adadan biri Yust adasıdır. Onu bəzən Friz adası da adlandırırlar. "Aşağı Saksoniya dayaz dəniz sahəsi" milli parkının ərazisində yerləşən ada almanların və əcnəbi turistlərin sevimli istirahət məkanlarından biridir. Belə ki, adada avtomobillər olmadığından sakitliyi sevən turistlər burada əsl cənnətə düşürlər. Maraqlısı budur ki, hətta at faytonları belə adada piyadaların sürətinə uyğun hərəkət etməlidir.



Adanın maksimum eni 1 kilometrdir. Bu unikal landşaft Şimal dənizinin digər kiçik adaları ilə birlikdə UNESKO-nun təbiət abidələrinin Dünya İrsi siyahısına daxil edilib.

Bu regionun digər dəniz kurortlarında da avtomobil nəqliyyatının hərəkəti qadağan edilib və ya məhdudlaşdırılıb. Onların arasında Baltrum, Gelqoland, Langeoq, Şpikeroq və Vangeroq adaları var.

### Yadigar söz

**Antuan de Sent-Ekzüperi**

*(fransız yazıçısı)*

***Özün özünü mühakimə et. Ən çətini budur. Özünü mühakimə etmək başqalarını mühakimə etməkdən qat-qat çətindir. Özünü ədalətlə mühakimə edə bilsən, deməli həqiqətən müdrik adamsan.***

## Bakı və Abşeron üzrə namaz vaxtları (Sentyabr - 2019)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:43 | 06:07 | 12:40 | 17:19 | 19:28 | 20:32 |
| 2 | 04:44 | 06:08 | 12:40 | 17:18 | 19:26 | 20:30 |
| 3 | 04:45 | 06:09 | 12:40 | 17:17 | 19:24 | 20:28 |
| 4 | 04:46 | 06:10 | 12:40 | 17:15 | 19:23 | 20:26 |
| 5 | 04:48 | 06:11 | 12:39 | 17:14 | 19:21 | 20:24 |
| 6 | 04:49 | 06:12 | 12:39 | 17:13 | 19:20 | 20:23 |
| 7 | 04:50 | 06:13 | 12:38 | 17:11 | 19:18 | 20:21 |
| 8 | 04:51 | 06:14 | 12:38 | 17:10 | 19:16 | 20:19 |
| 9 | 04:52 | 06:15 | 12:38 | 17:09 | 19:15 | 20:17 |
| 10 | 04:53 | 06:16 | 12:37 | 17:08 | 19:13 | 20:15 |
| 11 | 04:55 | 06:17 | 12:37 | 17:06 | 19:11 | 20:14 |
| 12 | 04:56 | 06:18 | 12:37 | 17:05 | 19:10 | 20:12 |
| 13 | 04:57 | 06:19 | 12:36 | 17:04 | 19:08 | 20:10 |
| 14 | 04:58 | 06:20 | 12:36 | 17:02 | 19:06 | 20:08 |
| 15 | 04:59 | 06:21 | 12:36 | 17:01 | 19:04 | 20:06 |
| 16 | 05:00 | 06:22 | 12:35 | 16:59 | 19:03 | 20:04 |
| 17 | 05:01 | 06:23 | 12:35 | 16:58 | 19:01 | 20:03 |
| 18 | 05:02 | 06:24 | 12:35 | 16:57 | 18:59 | 20:01 |
| 19 | 05:03 | 06:25 | 12:34 | 16:55 | 18:58 | 19:59 |
| 19 | 05:05 | 06:26 | 12:34 | 16:54 | 18:56 | 19:57 |
| 21 | 05:06 | 06:26 | 12:34 | 16:52 | 18:54 | 19:56 |
| 22 | 05:07 | 06:27 | 12:33 | 16:51 | 18:53 | 19:54 |
| 23 | 05:08 | 06:28 | 12:33 | 16:50 | 18:51 | 19:52 |
| 24 | 05:09 | 06:29 | 12:32 | 16:48 | 18:49 | 19:50 |
| 25 | 05:10 | 06:30 | 12:32 | 16:47 | 18:48 | 19:48 |
| 26 | 05:11 | 06:31 | 12:32 | 16:45 | 18:46 | 19:47 |
| 27 | 05:12 | 06:32 | 12:31 | 16:44 | 18:44 | 19:45 |
| 28 | 05:13 | 06:33 | 12:31 | 16:43 | 18:43 | 19:43 |
| 29 | 05:14 | 06:34 | 12:31 | 16:41 | 18:41 | 19:42 |
| 30 | 05:15 | 06:35 | 12:30 | 16:40 | 18:39 | 19:40 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə)*:** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## İLK "FƏTVA ROBOTU"

Səudiyyə Ərəbistanının İslam, Çağırış və Nəsihət üzrə Nazirliyi İnformasiya Texnologiyaları Baş İdarəsinin dəstəyi ilə "Fətva robotu" xidmətini istifadəyə verib.

"Fətva robotu" iki Müqəddəs Ocağın xadimi, Səudiyyə Ərəbistanı Kralı Salman bin Əbdüləziz əs-Səudun həcc və ümrə qonaqları proqramının iştirakçılarına şəriətə uyğun fətva və dini məsləhətlər verəcək.

Qeyd olunur ki, bu, İslam dünyasında ilk elektron fətva xidməti göstərən robotdur. "Fətva robotu" sayəsində qonaqlar videozəng vasitəsilə nazirliyin bir qrup müftiləri ilə birbaşa bir neçə dildə əlaqə saxlaya biləcəklər. Robot pultla idarə edilir.

## ÜMUMDÜNYA İRS SİYAHISINA DAXİL OLAN MÜSƏLMAN QƏBİRİSTANI



İraqın Nəcəf şəhəri yaxınlığında dünyanın ən qədim və ən böyük müsəlman qəbiristanı yerləşir. "Vadi-əs-Salam" (Sülh vadisi) adlanan bu qəbiristan 1400 il əvvəl yaranıb. İslam dininin yarandığı dövrdən meydana gələn bu məzarlıq 600 hektar ərazini əhatə edir və hər il daha da genişlənir.

Bu qəbiristanda peyğəmbərlər, alimlər, hökmdarlar dəfn ediliblər. İmam Əlinin məzarının yerləşdiyi bu qəbiristanda Adəm və Nuh peyğəmbərin qəbrinin olduğu da iddia edilir. Böyük şəxsiyyətlərlə yanaşı, burada sadə müsəlmanlar dəfn ediliblər. "Vadi-əs-Salam"da 5 milyondan çox qəbir var. Qəbirlərin biri-birinə çox yaxın olmasına baxmayaraq, onların arasında cığırlar salınıb. Bu cığırlarla insanlar lazım olan qəbri tapıb onu ziyarət edirlər. Burada sadə qəbirlərlə yanaşı, sərdabələr də var ki, bu da ölənin kasıb, yaxud varlı olmasını göstərir.

"Vadi-əs-Salam" qəbiristanı 2010-cu ildə UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894